Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

16 avqust 2025-ci il №30 (9136) www.muallim.edu.az muallim@media.edu.az

# PREZİDENT FƏRMAN İMZALADI

## Azərbaycanla Özbəkistan arasında elm, peşə və ali təhsil sahələrində əməkdaşlığa dair saziş təsdiqləndi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında elm, peşə təhsili və ali təhsil sahələrində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında Fərman imzalayıb. "Azərbaycan müəllimi" xəbər verir ki, Fərmanda deyilir:

"Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il iyulun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında elm, peşə təhsili və ali təhsil sahələrində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.
2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin".



# 500 GƏNC XARİCDƏ TƏHSİL ALACAQ

2025/2026-cı tədris ili üçün Dövlət Proqramı çərçivəsində dünyanın 14 ölkəsinə aid 64 nüfuzlu ali təhsil müəssisəsində 125 bakalavriat, 356 magistratura və 19 doktorantura səviyyələrində olmaqla, ümumilikdə 500 nəfər təhsil almaq hüququ qazanıb. Proqram iştirakçısı seçilən 500 nəfərdən 160 nəfəri dünya universitetlərinin qlobal reytinq sıralamasında top-10-luqda yer alan ali təhsil müəssisələrində təhsil alacaq. Onlardan Harvard Universiteti, Stanford Universiteti, Massaçusets Texnologiya İnstitutu, Sinqapur Milli Universiteti, Oksford Universiteti, Berkli Kaliforniya Universiteti, ETH Sürix, Yel Universiteti kimi nüfuzlu ali təhsil müəssisələrini qeyd etmək olar.



Orxan MƏMMƏDLİ:

## "Harvard Universitetinin Kennedi Məktəbində təhsil alacağam"

"500 nəfərin nüfuzlu universitetlərdə tam təminatlı təhsil almasına dəstəyin göstərilməsi dünyada çox az rast gəlinən nümunələrdəndir"



Səma MƏMMƏDOVA:

## "Yel Universitetində təhsilimi davam etdirəcəyəm"

"Proqrama qəbul olunmağım barədə xəbəri sms bildirişi vasitəsilə aldım. Məktubu oxuyanda çox həyəcanlandım və qürur hissi keçirdim"

# Elm fədaisi, müəllim, milli fəxrimiz



Azərbaycan çoxəsrlik tarixi boyu dünyaya bir çox korifeylər və mütəfəkkirlər bəxş edib. Əsrlər boyu Azərbaycan alimləri elmin müxtəlif sahələrində meydana gətirdikləri kəşflərlə bəşəriyyətin elmi xəzinəsinə böyük töhfələr veriblər. Elm adamlarımız, alimlərimiz xalqımızın milli mənlik şüurunun yüksəlişi və inkişafında, intellektual potensialının güclənməsində parlaq izlər qoyublar. Onların hər biri öz tədqiqatları, kəşfləri, Vətən qarşısında töhfələri ilə elm tariximizdə milli fəxarət zürvəsinə yüksəliblər. Bu inkişaf mərhələsində Azərbaycanı, milli elmimizi inkişaf etdirən, dünyada tanıdan, ölkəmizi şöhrətləndirən görkəmli alimlərimiz arasında görkəmli kimyaçı, maarifpərvər alim, akademik Yusif Məmmədəliyev xüsusi yer tutur. Prezident İlham Əliyevin 5 iyul 2025-ci il tarixli Sərəncamı ilə akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinin geniş qeyd olunması dövlətimiz tərəfindən ölkəmizdə elmə, alimə verilən ən yüksək qiymətdir.

Ardı səh.5

# "Maarifçi"lər strateji plan hazırladılar



*Turan Əliyev:* "Qrupumuzda fərqli ixtisaslar üzrə təhsil alan və nazirliyin müxtəlif strukturlarında təcrübə keçən gənclər vardı. Müəyyənləşdirdiyimiz prioritetlərdən biri universitetlərin regionlara köçürülməsi idi. Ali təhsil istiqaməti üzrə 2027-2030-cu illər üçün bir sıra hədəflər müəyyənləşdirib strateji plan hazırladıq. Çox maraqlı proses idi, amma səhvlər etmişdik".

*Reyhanə Musayeva:* "Bu gün strateji planını hazırladığımız məsələ - inklüziv təhsildə olan problemlərlə məktəbdən tanışam. Müəllimlərimdən biri inklüziv təhsilə ehtiyacı olan uşaqlara kömək edir, ona təhsil verirdi. Həmin müəllimimlə bu mövzuda çox söhbətlərimiz olmuşdu. Yaxud ikinci prioritetimiz olan bullinq məsələsi, şagird zorakılıqları idi".

Bax səh.2

# Qarabağ Universiteti VII Türkoloji "Yay məktəbi"nə ev sahibliyi edir

Xankəndi şəhərində Qarabağ Universiteti, Türk Akademiyası və Türkiyə Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə 7-ci Türkoloji "Yay məktəbi"nə start verilib. Universitetdən "Azərbaycan müəllimi"nə bildirilib ki, proqramın əsas məqsədi türkoloji tədqiqat sahəsində gənc alimlərin elmi potensialını gücləndirmək, müxtəlif ölkələrdən gələn iştirakçılar arasında qarşılıqlı bilik və təcrübə mübadiləsini təşviq etmək, müasir elmi yanaşmaların və praktik tədqiqat metodlarının öyrənilməsinə imkan yaratmaqdır.

2025-ci ilin 10-17 avqust tarixlərində keçirilən "Yay məktəbi" çərçivəsində Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Monqolustan, Şimali Kipr və Makedoniyadan olan 32 gənc alim və doktorant bir həftə ərzində türkologiyanın müxtəlif istiqamətləri - dilçilik, ədəbiyyatşünaslıq, tarix, etnoqrafiya və mədəniyyət araşdırmaları üzrə intensiv dərslərdə iştirak edir. Tədris prosesi 5 ölkədən - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan dəvət olunmuş 15 tanınmış alim və mütəxəssisin iştirakı ilə həyata keçirilir. "Yay məktəbi" müddətində türkologiyanın müvafiq istiqamətləri üzrə elmi yanaşmaların bölüşülməsi, tədqiqat təcrübələrinin paylaşılması, eləcə də müvafiq mövzularda elmi diskussiyaların aparılması nəzərdə tutulur.

Ardı səh.4

# "Xəyallarımızın ardınca getməliyik"



Fidan BABAYEVA:

## "Dünyanın tanınmış universitetlərində təhsil almaq məktəb illərindən xəyalım olub"

"Dünyanın tanınmış universitetlərində təhsil almaq, fərqli şəhərləri gəzmək və xaricdə tələbəlik həyatı yaşamaq məktəb illərindən xəyalım olub. Bakalavr təhsilimi burada alsam da, magistr təhsilimi xaricdə davam etdirmək qərarını vermişdim. Buna görə də elə universitet illərindən xarici universitetləri və təqaüd proqramlarını araşdırırdım".

Bax səh.4

## GƏLƏCƏYİN KODUNU BU GÜN YAZANLAR

IOI qaliblәri danışırlar



Bax səh. 6

## MƏKTƏBDƏ ƏLAÇI, KARATEDƏ ZİRVƏDƏ

İdman uğurları



Bax səh. 7

## TƏTİL ÜÇÜN GÜCLÜ PEDAQOJİ ALƏT

Animasiya filmləri



Bax səh. 8

# “Maarifçi”lər strateji plan hazırladılar



REPORTAJ

**Leyla Xəlilova Rzazadə:**

**“Bu layihə çərçivəsində nəinki təhsil sistemi, bütövlükdə cəmiyyətimiz üçün faydalı kadrların yetişəcəyinə inanıram”**



Turan Əliyev



Reyhanə Musayeva



Leyla Xəlilova Rzazadə

Monitorinq edir, qiymətləndirir, hesabat hazırlayır və ortaya çıxan nəticəyə əsasən müəyyənləşdiririk ki, biz hardayıq?” Bunu Elm və Təhsil Nazirliyinin Strateji planlaşdırma və təhlil şöbəsinin müdiri Leyla Xəlilova Rzazadə III “Maarifçi” proqramının iştirakçıları ilə görüşdə deyib.

O, təlim xarakteri daşıyan görüşdə əvvəlcə rəhbərlik etdiyi şöbənin işi ilə bağlı məlumat verib, gördükləri işin mahiyyətindən danışıb: “Planlaşdırma zamanı əsas 5 suala cavab verməliyik. Birinci sual budur: “Biz indi hardayıq?” Bunu cavablandırmaq üçün məlumat bazamız olmalıdır. İkincisi, “Hara getmək istəyirik?” – sualıdır ki, bu da qısamüddətli, orta və uzunmüddətli hədəfimizi müəyyənləşdirməyimizin vacibliyini göstərir. “Hədəfimizə necə çatacağıq?” – sualının altında həddindən artıq böyük komponentlər var. Maliyyə, insan resursları, planı kimin hansı formada həyata keçirəcəyi, məqsədə çatmaq üçün hansı addımların atılacağı, nə kimi tədbirlərin görüləcəyi müəyyənləşdirilməlidir. Dördüncü sual nə ilə ölçəcəyimiz məsələsidir. Monitorinq, qiymətləndirmə və hesabatlılıq bu fəaliyyətin vacib komponentləridir. Sonuncu sual isə görülən işlərə kimin cavabdeh olması ilə bağlıdır”.

Sadaladıqlarını bilməyin “Maarifçi” gənclər üçün əhəmiyyətli olacağını vurğulayan Leyla Xəlilova Rzazadə bildirib ki, hazırda bir strateji dövrün yekunlaşıb digər strateji dövrün planlaşdırılmasına başlanıldığı dövrdür.

Belə bir dövrdə “Maarifçi”lərlə görüşmələrinin xüsusilə əhəmiyyətli olduğunu vurğulayan şöbə müdiri “Maarifçi” gənclərin suallarını da cavablandırıb.

Sonra III “Maarifçi” proqramının iştirakçıları 6 qrupa bölünüb strateji plan hazırlamaq tapşırığını yerinə yetiriblər.

Bu tapşırğa görə, gənclər seçdikləri istiqamət üzrə 3 prioritet müəyyənləşdirərək Elm və Təhsil Nazirliyi üçün strateji plan hazırlamalı idilər.

Planlar quruldu, layihələr bir-bir ortaya çıxdı. Təqdimatlar maraqlı olsa da, səhvlər də vardı. Hər layihədə gənclərin təhsil sisteminə bələd olduğu hiss olunurdu.

## “Strateji plan hazırladıq, amma məlum oldu ki...”

Altı qrupdan birinin nümayəndəsi Turan Əliyev Azərbaycan Dövlət İqtisad Universitetində “Maliyyə” ixtisası üzrə təhsil alıb. Hazırda Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsində təcrübəsini davam etdirir: “Qrupumuzda fərqli ixtisaslar üzrə təhsil alan və nazirliyin müxtəlif strukturlarında təcrübə keçən gənclər vardı. Müəyyənləşdirdiyimiz prioritetlərdən biri universitetlərin regionlara köçürülməsi idi. Ali təhsil istiqaməti üzrə 2027-2030-cu illər üçün bir sıra hədəflər müəyyənləşdirib strateji plan hazırladıq. Çox maraqlı proses idi, amma səhvlər etmişdik. Özü də bütün səhvlərimiz Leyla xanımın barəsində danışdıqları məsələlərlə bağlı idi. Məsələn, hədəfi müəyyənləşdirib barəsində uzun-uzadı danışsaq da, bir sualla bütün qurduğumuz plan dağıldı. Məlum oldu ki, planımızda dövrü və mövzunu müəyyənləşdirsək də, lazım olan vəsaiti, resurslarımızı nəzərə almamışıq”.

## “Strateji planın mövzusu ilə məktəbdən tanışam”

Reyhanə Musayeva Təhsil İnstitutunun Qiymətləndirmə, Təhlil və Monitorinq Mərkəzinin Statistik məlumatların təhlili şöbəsində data analitik kimi fəaliyyət göstərir. Bakalavr təhsilini Bakı Dövlət Universitetinin SABAH qruplarında “Riyaziyyat müəllimliyi” ixtisası üzrə, magistratura təhsilini Dövlət İdarəçilik Akademiyasında “Kompüter elmləri” ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. İqtisadi fəaliyyətin riyazi informasiya təminatı üzrə ixtisaslaşıb. Qrup işində də öz fəaliyyətini qabardan Reyhanə iddialıdır: “Uşaqlıqdan olan fəallığım, maraqlarım, təhsilim sayəsində qrup işindəki rolum böyük oldu. Məsələn, bu gün strateji planını hazırladığımız məsələ – inklüziv təhsildə olan problemlərlə məktəbdən tanışam. Müəllimlərimdən biri inklüziv təhsilə ehtiyacı olan uşaqlara kömək edir, ona təhsil verirdi. Həmin müəllimimlə bu mövzuda çox söhbətlərimiz olmuşdu. Yaxud ikinci prioritetimiz olan bullinq məsələsi, şagird zorakılıqları idi. Bu məsələ də məlumatlı olduğum problemlərdən biridir. Ümumiyyətlə, fəal şagird idim, hər zaman öndə olmuşam. Müəllimlərim məni problemləri düzgün müəyyənləşdirdiyim və həll etdiyim üçün sinif nümayəndəsi təyin etmişdilər. Məntiqi təfəkkürüm, təhlil bacarığım da məktəbdə tez-tez olimpiadalara qatıldığım üçün yaxşı inkişaf edib. Odur ki, qrup işində də fəal rol oynadım”.

## “Uğurlu başlayan, uğurla davam edən və təkmilləşən bir layihədir”

Görüşü qiymətləndirən Leyla Xəlilova Rzazadə “Azərbaycan müəllimi”nə açıqlamasında bildirib ki, “Maarifçi” proqramı gənclərin inkişafı ilə bağlı həyata keçirilən vacib layihələrdən biridir. Bu layihə həm gənclər, həm də nazirlik üçün faydalıdır:

“Prosesə töhfə vermək üçün mən də öz təcrübəmi bölüşməyə çalışdım. Görüş çox interaktiv, maraqlı və qarşılıqlı müzakirə şəraitində keçdi. Suallarıma aldığım cavabdan aydın görünürdü ki, “Maarifçi”lər prosesin içərisindədir, təhsil sistemi ilə yaxından maraqlanır və gedən prosesləri yaxından izləyirlər. Layihə çərçivəsində keçirilən görüşlər, təlimlər qarşılıqlı öyrənmə mühiti formalaşdırır, “Maarifçi”lərin inkişafına öz töhfəsini verir”.

Şöbə müdiri əlavə edib ki, “Maarifçi” proqramının ideyasının irəli sürüldüyü gündən prosesin fəal iştirakçısıdır: “Hər 3 “Maarifçi”ni görən biri olaraq qürurla deyə bilərəm ki, uğurlu başlayan, uğurla davam edən və təkmilləşən bir layihədir. Bu layihə sayəsində nəinki təhsil sistemi, bütövlükdə cəmiyyətimiz üçün faydalı kadrların yetişəcəyinə inanıram”.

**foto: Kənan QAFAROV**

# “Bir çox yeniliklər öyrəndim”



“Büdcədə əksini tapan hər rəqəmin arxasında insanların saatlar sərf etdiyi faktlar var. Büdcə bir cədvəldən başqa cədvələ rəqəmlərin keçirilməsi, toplanması deyil. Hər hansı islahatın aparılması, hansısa yeniliyin gətirilməsi çox çətin prosesdir”.

Bu fikirlər Elm və Təhsil Nazirliyinin Təhsilin iqtisadiyyatı şöbəsinin Ortamüddətli xərclər çərçivəsi sektorunun müdiri Tural Mahmudovundur. O, III “Maarifçi” tələbə-məzun təcrübə proqramının iştirakçıları üçün nazirlikdə təşkil edilən növbəti təlimdə bu barədə danışdı. Təlimin mentoru olan sektor müdiri “Maarifçi”lərə büdcə məsələlərində düzgün proqnozlaşdırmanın əhəmiyyətini izah etdi, bu işdə yanlışlığa yol verməmin nəticələrini rəqəmlərlə göstərdi, hesabatlılıq, koordinasiya və əməkdaşlıqdan əldə ediləcək faydalara diqqət çəkdi. Nəticəəsaslı büdcə mexanizminin prinsipləri, ortamüddətli xərclər çərçivəsinin mahiyyəti, büdcə planlaşdırmasının mərhələləri, fiskal dayanıqlığın təmin olunması, hədəf göstəricilərinin formalaşdırılması, eləcə də hesabatlılıq, koordinasiya və əməkdaşlıq barədə söz açdı.

“Azərbaycanda nəticəəsaslı büdcə mexanizminin tətbiqi” mövzusunda təqdimatla çıxış edən Tural Mahmudov təqdimatında təhsildə 2016-cı ildən strateji yol xəritəsinin hazırlanması ilə başlayan islahatların tarixçəsinə nəzər saldı. Bu islahatların uğurla həyata keçirilməsində hədəflərin konkret qoyulmasının əhəmiyyətinə toxundu.

### “Maarifçi”lərə 3 tapşırıq

Sonra gənclərə 3 tapşırıq verdi. Proqram iştirakçılarını “Məktəb təmirinə ayrılan vəsaitin nəticə göstəricisi nə ola bilər? Sadəcə “təmir edildi” demək kifayətdirmi, yoxsa əlavə ölçmələr lazımdır?” sualı ətrafında müzakirələrə cəlb etdi. Növbəti tapşırıqda hər iştirakçı öz sahəsi üzrə bir nəticə göstəricisi yazmalı idi. Nəhayət, “Nəticəəsaslı büdcə mexanizmində ən böyük çətinlik nə ola bilər?” – sualı ilə fikirlər haçalandı, təkliflər şaxələndi, cavablar qarşılıqlı müzakirələrə gətirib çıxardı. Müzakirələrdə “Maarifçi”lər israrla öz iddialarını sübut etməyə çalışdılar. Hər cavab, hər fikir ətrafında fikir mübadiləsi aparıldı.

Bəs düzgün nəticə çıxarıldımı?

### “Təlim interaktiv keçdi”

Tural Mahmudov “Azərbaycan müəllimi”nə təlimin nəticələrindən danışarkən deyib ki, gənclərin müzakirələrdə iştirakını yüksək qiymətləndirir. Onların fəal olduğunu qeyd edən Tural Mahmudovun fikrincə, verdikləri suallardan, tapşırıqlara yanaşmalarından görünürdü ki, gənclər deyilənləri anlayıb, bu barədə ümumi biliyə sahibdirlər: “Suallarla onların barəsində danışdığımız məsələ – “Azərbaycanda nəticəəsaslı büdcə mexanizminin tətbiqi” mövzusu üzərində diqqətlərini cəmləmələrinə, açdığımız müzakirələrlə bu barədə təsəvvürlərini genişləndirməyə çalışdım. Gənclərin suallarından görünürdü ki, ilkin biliklərə malikdirlər, əksər məsələlərdə öz fikirləri yarandı”.

**Tural MAHMUDOV:**

**“Təlimlər “Maarifçi”lərin karyeralarını formalaşdırmalarına töhfə verəcək”**

“Maarifçi” gənclərlə ilk dəfə təlimdə oldum. Onların hamısı maliyyəçi deyil. Fərqli ixtisaslarda təhsil alıb fərqli sektorlarda təcrübə keçirlər. Ona görə də təlimdə daha çox ümumi məlumat verməyə çalışdım. Öz təcrübəmə əsaslanaraq bir az nəzəri, bir az praktiki nümunələr əsasında bildiklərimi onlarla bölüşdüm. Ümid edirəm ki, bu gün üzərində dayandığımız məqamlar gələcəkdə onlar üçün faydalı olacaq. Bu cür təlimlər “Maarifçi”lərin karyeralarını formalaşdırmalarına töhfə verəcək”.

### “Təhsil müəssisələri üzrə maliyyə ayrılanda keyfiyyət göstəricilərinə də diqqət etməli olduğumu anladım”

Təhsilin iqtisadiyyatı şöbəsində təcrübə keçən “Maarifçi” Fərəh Məcidli Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) “Maliyyə” ixtisası üzrə məzunudur. Bu il magistratura səviyyəsində təhsil almağa başlayıb. UNEC-də bu dəfə “Audit” ixtisası üzrə magistr təhsili alacaq: “Bu gün öyrəndim ki, dövlət büdcəsinin formalaşmasında gəlir və xərclərə diqqət etməklə yanaşı, nəticələrin əvvəlcədən düzgün proqnozlaşdırılması önəmlidir. Bu, şəffaflığı və hesabatlılığı artırır, maliyyə resurslarının səmərəli istifadəsinə gətirib çıxarır”.

Gənc maliyyəçi öz səhvini də anlayıb: “Təhsil müəssisələri üzrə maliyyə ayrılanda keyfiyyət göstəricilərinə də diqqət etməli olduğumu anladım. Tapşırığı yerinə yetirərkən mən buna diqqət etməmişdim”.

### “Yanaşmamız səhv deyildi, sadəcə, təcrübəsizlikdən irəli gələn yanlışlarımız vardı”

Fəxrəddin Abbasov Bakı Dövlət Universitetinin “Dövlət və ictimai münasibətlər” ixtisası üzrə bakalavr təhsilindən sonra bu ildən Azərbaycan Dövlət İdarəçilik Akademiyasında “İctimai siyasət” ixtisası üzrə magistratura səviyyəsində oxuyacaq. Hazırda Elm və Ali Təhsil üzrə Dövlət Agentliyində Sənədlərlə və müraciətlərlə iş sektorunda təcrübə keçir: “Bugünkü təlimdə maliyyə mexanizminin formalaşdırılması, büdcədən səmərəli istifadəni öyrəndim. Təlimdə verilən tapşırıqları yerinə yetirərkən bir çox yeniliklər öyrəndim. Məsələn, tabe qurumların maliyyə hesabatlılığı ilə bağlı təsəvvürüm formalaşdı. Müxtəlif ixtisaslarda təhsil aldığımız üçün bir tapşırığa ayrı-ayrı perspektivlərdən baxışlarla tanış olduq, həm bir-birimizidən, həm də mentorumuzdan öyrəndik. Məncə, yanaşmamız səhv deyildi, sadəcə, təcrübəsizlikdən irəli gələn yanlışlarımız vardı”.

### “Maarifçi” yoluna davam edir

“Maarifçi”nin növbəti təlimi də uğurla baş tutdu. Onlar nəticəəsaslı büdcə formalaşdırdı, maliyyə resurslarını idarə etməyi öyrəndi, hesabatlılığı təmin etməyin əhəmiyyətini anladılar.

Qeyd edək ki, III “Maarifçi” tələbə-məzun təcrübə proqramı Elm və Təhsil Nazirliyinin təşəbbüsü, Təhsilin İnkişafı Fondunun dəstəyi ilə keçirilir.

**Səhifəni hazırladı: Ruhiyyə DAŞSALAHLI**

# 500 GƏNC XARİCDƏ TƏHSİL ALACAQ

# Dövlət Proqramı təqaüdçüsü adını qazanmış gənclərlə görüş

Avqustun 13-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Dövlət Proqramı təqaüdçüsü adını qazanmış gənclərlə orientasiya görüşü keçirilib. Tədbirdə Dövlət Proqramı qalibləri, proqramın icraçı heyəti və digər rəsmi qonaqlar, valideynlər, KİV nümayəndələri iştirak ediblər.

Dövlət Proqramı İdarəetmə Qrupunun proqram iştirakçıları ilə iş üzrə mütəxəssisi Nərmin Bünyatova görüşün mövzusu barədə məlumat verib. O DP İdarəetmə qrupunun fəaliyəti, proqrama qəbulun nəticələri barədə danışaraq xaricdə təhsil alacaq tələbələrin təhsili, tədris prosesinin təşkili, koordinasiyası, maliyyələşdirilməsi ilə bağlı çoxsaylı məqamlara aydınlıq gətirib.

Bildirilib ki, artıq 2025/2026-cı tədris ili üçün Dövlət Proqramı çərçivəsində dünyanın 14 ölkəsinə aid 64 nüfuzlu ali təhsil müəssisəsində 125 bakalavriat, 356 magistratura və 19 doktorantura səviyyəsində olmaqla, ümumilikdə 500 nəfər təhsil almaq hüququ qazanıb. Proqram iştirakçısı seçilən 500 nəfərdən 160-ı dünya universitetlərinin qlobal reytinq sıralamasında top-10-luqda yer alan ali təhsil müəssisələrində təhsil alacaq. Onlardan Harvard Universiteti, Stanford Universiteti, Massaçusets Texnologiya İnstitutu, Sinqapur Milli Universiteti, Oksford Universiteti, Berkli Kaliforniya Universiteti, ETH Sürix, Yel Universiteti kimi nüfuzlu ali təhsil müəssisələrini qeyd etmək olar.

Görüş çərçivəsində tələbələri maraqlandıran sualların cavablandırılması üçün sual-cavab sessiyası təşkil olunub. Sessiyada xaricdə təhsil almaq hüququ qazanan gəncləri təhsil dövründə qarşılaşa biləcəkləri çətinliklərin aradan qaldırılması, proqram iştirakçıları ilə qurumlar arasında əlaqələrin yaradılmasından bəhs olunub, xaricdə təhsilin bütün aspektləri üzrə gəncləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" nın hədəfi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək, yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir.

Tədbirdə dünyanın nüfuzlu universitetlərində təhsil alacaq bir qrup gənc "Azərbaycan müəllimi"nə həm görüş təəssüratlarını, həm də proqrama qəbulla bağlı fikirlərini, proqramın əhəmiyyəti barədə fikirlərini bölüşdülər.



Orxan Məmmədli



Murad Alməmmədov



Aytən Sədirova



Sənan Əliyev



Səma Məmmədova

## "500 nəfərin nüfuzlu universitetlərdə tam təminatlı təhsil almasına dəstəyin göstərilməsi dünyada çox az rast gəlinən nümunələrdəndir"

*Orxan Məmmədli:* Harvard Universitetinin Kennedi Məktəbində Dövlət İdarəetməsi üzrə magistr səviyyəsində təhsil alacağam.

Dövlət Proqramına qəbul ilə əlaqədar olaraq, ilk növbədə, məlumatlandırıcı SMS aldım. Burada, müvafiq portalda - portal.edu.az - açılmış olan şəxsi kabinetin yoxlanılmasına dair təlimat mövcud idi. Təlimata uyğun olaraq şəxsi kabineti yoxladıqda isə artıq proqrama müraciətə dair nəticənin bəlli olduğunu gördüm və burada mənim nəticəm müsbət idi. Əlbəttə ki, həmin anlar sevincli anlar idi.

İxtisasım bir çox sahələri əhatə edəcək. Bunlardan xüsusilə strateji planlaşdırma və idarəetmə, rəqəmsal idarəetmə və innovasiya, iqtisadi siyasət və makroiqtisadi idarəetmə, dövlət maliyyəsi və resursların idarə olunması, dayanıqlı inkişaf siyasəti, sosial siyasət və rifah sistemlərini vurğulmaq istərdim. Bu sahələr ölkəmiz üçün uzunmüddətli milli inkişaf proqramlarının hazırlanması və tətbiqi, dövlət xidmətləri üzrə rəqəmsal transformasiyanın daha da genişləndirilməsi, innovasiya ekosisteminin inkişafı, milli iqtisadiyyatın rəqabətqabiliyyətliyinin daha da gücləndirilməsi, dövlət resurslarının effektiv idarə olunması, yaşıl iqtisadiyyatın inkişafı, dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi baxımından həm cari, həm gələcək perspektivdə faydalı olacaqdır.

Dövlət Proqramının gənclər üçün əhəmiyyətli roluna gəlincə, qeyd edim ki, bütün dünyada beynəlxalq səviyyədə müxtəlif təqaüd proqramları olsa da, ölkə miqyasında bu həcmdə, yəni, ardıcıl 7 il ərzində hər il 3 ayrı-ayrı təhsil pilləsi üzrə ümumilikdə 500 nəfərin nüfuzlu universitetlərdə tam təminatla təhsil almasına dəstəyin göstərilməsi çox az rast gəlinən nümunələrdəndir. Bu baxımdan, gənclər üçün belə bir imkanın yaradılmasının həm onların şəxsi inkişafı, həm də ölkəmizin gələcəyi üçün əhəmiyyəti olduqca yüksəkdir. Gənclərin özləri üçün faydalarına gəlincə, bunlardan dünyanın ən nüfuzlu universitelərində təhsil almaq və bununla qlobal miqyasda bilik, bacarıq və peşəkar şəbəkəyə çıxışın əldə edilməsini, müxtəlif ölkələrin iqtisadi, biznes, sosial və mədəni təcrübələrinin öyrənilməsini və bunların nəticəsində gənclərin öz potensiallarının maksimal inkişafına nail olunmasını qeyd edə bilərəm.

Bütün bunlara hər bir təhsil pilləsi üzrə uğura nail olmaq üçün isə əlbəttə ki, əhəmiyyətli həcmdə maliyyə və insan resursları tələb olunur. Bu mənada, proqramın Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilməsi və Dövlət Proqramının İdarəetmə Qrupu (DPİQ) tərəfindən isə bütün proseslərin təşkili və təmin edilməsi dövlətin diqqət və qayğısına ən bariz nümunədir. Xüsusilə, proqramın şəffaf aparılması, seçim sonrası və təhsil müddətində gənclərə sonsuz texniki, inzibati və aidiyyəti məsələlər üzrə dəstəyin göstərilməsi, məzun olduqdan sonra iş imkanları ilə bağlı kommunikasiyanın təşkil edilməsi dövlətin digər əhəmiyyətli qayğılarındadır.

Bugünkü orientasiya görüşünə gəlincə, qeyd edim ki, ümumiyyətlə, tədbirin 2 hissədə - təqdimat və sual-cavab formatında aparılması düşünürəm ki, proqrama dair bütün məqamlarla tanış olmaq, onları aydınlaşdırmaq üçün kifayət qədər faydalı yanaşmadır. Hər bir tədbir nəticəsində tələbələr istər təhsil öncəsi, istərsə də təhsil dövründə onlara lazım olan bütün növ dəstəyi vaxtlı-vaxtında əldə etmək imkanına sahib olacaqlar.

Sonda mütləq qeyd etməliyəm ki, Dövlət Proqramının İdarəetmə Qrupunun Dövlət Proqramına müraciətin ilk günlərindən bugünkü tədbirə qədər tələbələrə daima, yorulmadan dəstək göstərən, əllərindən gələni etdiklərini görmüşəm. Odur ki, onlara, həm öz, həm digər tələbələr adından təşəkkür edir və minnətdarlığımı bildirirəm.

## "Qəbul xəbərini alanda çox sevindim"

*Murad Alməmmədov:* Kembric Universitetində "Siyasət və beynəlxalq münasibətlər" ixtisası üzrə magistr təhsili alacağam. Bundan əvvəl isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Siyasi idarəetmə fakültəsində "Politologiya" ixtisası üzrə bakalavr təhsili almışam. Dövlət Proqramına qəbul olunmağım barədə xəbəri alanda axşam tərəfi idi, ailəmlə dəniz kənarında idik, çox sevindim. Kembric Universitetində "Enerji siyasəti" ixtisası üzrə təhsilimi davam etdirəcəyəm. Bu sahə heç şübhəsiz günümüzün ən aktual və perspektivli istiqamətlərindən biridir. Xüsusilə Qarabağ regionunun yaşıl enerji potensialını nəzərə alsaq, düşünürəm ki, olduqca lazımlı və gələcəkyönümlü sahədir.

Ümumiyyətlə, dünya miqyasında bu qədər əhatəli, yəni həm geniş maddi təminat, həm də ölkəyə qayıtdıqdan sonra iş imkanı ilə tam təmin edən çox az sayda təqaüd proqramı var. Və belə bir proqramın olması ölkəmizdə dövlətin gənclərə və onların təhsilinə verdiyi böyük dəyərin təzahürüdür. Bugünkü tədbir də kifayət qədər əhatəli və effektli oldu.

## "Uzun zamandır gözlədiyim xəbəri aldım"

*Aytən Sədirova:* Mən DP çərçivəsində Stanford Universitetində "Elektrik mühəndisliyi" ixtisası üzrə magistratura təhsili alacağam. Telefonuma DP-dən mesaj gəldi və həmin dəqiqə portalı yoxladım. Cavabın müsbət olduğunu görəndə isə böyük sevinc hissi keçirdim, uzun zamandır gözlədiyim xəbər idi.

Düşünürəm ki, texnologiya və mühəndisliyin sürətlə inkişaf etdiyi bir dövrdə ölkəmizdə bu sahələr üzrə mütəxəssislərin çox olması vacibdir. "Elektrik mühəndisliyi" ixtisası avtomatlaşdırma, enerji sistemləri, süni intellekt və s. kimi sahələrlə də əlaqəlidir. Bunlar ölkəmizdə enerji səmərəliliyinin artırılması və dayanıqlı inkişaf istiqamətləri üçün də olduqca perspektivlidir.

Dövlət Proqramı gənclərin dünyanın aparıcı universitetlərində təhsil alaraq müasir bilik və bacarıqlara yiyələnməsinə imkan verir. Bu, gənclər üçün çox böyük bir fürsətdir.

Tədbir olduqca faydalı keçdi, xaricdə təhsil alacağımız zaman diqqət etməli olduğumuz məqamlar barədə ətraflı məlumat verildi. Digər proqram iştirakçıları ilə tanış olmaq tədbirin maraqlı tərəflərindən biri idi.

## "Həyatımın ən önəmli və qürurlu anlarından biri"

*Sənan Əliyev:* Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin bakalavr pilləsini Prezident təqaüdçüsü kimi fərqlənmə diplomu ilə başa vurmuşam. 2025/2026-cı tədris ilində magistratura təhsilimi Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində yerləşən "Columbia University"nin hüquq fakültəsində, yəni "Columbia Law School"da davam etdirəcəyəm.

Dövlət Proqramına qəbul olunmağımla bağlı məlumatı e-mail vasitəsilə aldığımda sevinc hissləri keçirərək, ilk növbədə, bu yolda mənə dəstək olan yaxınlarımla xəbəri bölüşdüm.

Həqiqətən də, Dövlət Proqramının iştirakçısı olmaq və dünyanın ən nüfuzlu universitetlərindən birində Vətənimi təmsil etmək imkanı qazanmaq həyatımın ən önəmli və qürurlu anlarından biri oldu.

Təhsilimi davam etdirəcəyim ixtisas əsasən, beynəlxalq hüquq normalarının implementasiyası, beynəlxalq məhkəmələrin yurisdiksiyası, kibercinayətkarlıq və terrorçuluqla mübarizəyə dair sahələri əhatə edəcək. Hesab edirəm ki, bu istiqamətlərdə qabaqcıl dövlətlərin yanaşmalarını, eləcə də ən yaxşı beynəlxalq təcrübələri öyrənərək onların ölkəmizdə tətbiqinə nail olmaq, eləcə də beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirmək hüquq sistemimizin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Proqramın gənclər üçün əhəmiyyəti və dövlət qayğısı barədə onu deyə bilərəm ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı", həqiqətən də, perspektivli gənclərin öz bilik və bacarıqlarını inkişaf etdirməsi baxımından geniş imkanlar yaradır. Bu Proqram dövlətimizin gənclərin təhsilinə, onların peşəkar kadr kimi formalaşmasına və beynəlxalq mühitdə rəqabətədavamlı olmalarına verdiyi önəmin bariz nümunəsidir.

Bugünkü tədbir Dövlət Proqramı iştirakçılarını maraqlandıran sualların səsləndirilməsi və birbaşa Dövlət Proqramını İdarəetmə Qrupunun əməkdaşları tərəfindən cavablandırılması baxımından çox faydalı oldu. Tədbirin təşkilatçılarına və Dövlət Proqramını İdarəetmə Qrupunun əməkdaşlarına öz təşəkkürümü bildirirəm.

## "Dövlət Proqramı gənclər üçün böyük imkanlar yaradır"

*Səma Məmmədova:* "Mən ABŞ-də Yel Universitetində "Qrafik dizayn" ixtisası üzrə magistratura təhsili alacağam. Proqrama qəbul olunmağım barədə xəbəri sms bildirişi vasitəsilə aldım. Məktubu oxuyanda çox həyəcanlandım və qürur hissi keçirdim. Bu, illərlə üzərində çalışdığım bir məqsəd idi, ona görə də həmin an mənim üçün çox emosional oldu.

Qrafik dizayn sahəsi təkcə vizual estetika ilə deyil, həm də sosial, mədəni və iqtisadi mövzularla sıx bağlıdır. Bu sahə ölkəmizdə həm yaradıcı sənayelərinin, həm də mədəni irsin qorunması və tanıdılması baxımından böyük potensiala malikdir. Əldə edəcəyim bilik və bacarıqları Azərbaycanda dizayn təhsili, mədəni layihələr və sosial mövzulu vizual kommunikasiya sahələrində tətbiq etməyi planlaşdırıram.

Xaricdə təhsil üzrə Dövlət Proqramı gənclər üçün böyük imkanlar yaradır. Bu, təkcə fərdi inkişaf deyil, həm də ölkəmizin insan kapitalının gücləndirilməsi baxımından əhəmiyyətlidir. Dövlətin gənclərə bu cür dəstək göstərməsi onların beynəlxalq arenada rəqabət qabiliyyətini artırır və yeni biliklərin ölkəyə gətirməsinə şərait yaradır.

Bugünkü orientasiya tədbiri çox faydalı oldu. Proqramın prosedurları, təqaüdün şərtləri və xaricdə yaşayışla bağlı praktiki məlumatlar əldə etdik. Eyni zamanda digər təqaüdçülərlə tanış olmaq, təcrübə mübadiləsi aparmaq da çox dəyərli idi.

**Oruc MUSTAFAYEV**

# “Xəyallarımızın ardınca getməliyik”



Xaricdə təhsil gənclərin fərdi və peşəkar inkişafına təsir edən bir fürsətdir. Çünki xaricdə təhsil alanlar yalnız akademik bilik deyil, həm də dil bacarıqları, yeni mədəniyyətlər, fərqli düşüncə tərzləri və adaptasiya bacarıqları qazanırlar. Bu, onları iş dünyasında daha rəqabətli edir və gələcək karyeraları üçün geniş imkanlar yaradır. Belə parlaq gənclərimizdən biri də xaricdə təhsil üzrə Dövlət Proqramının qalibi olaraq təhsilini dünyanın TOP10 universitetindən biri olan London Universitet Kollecində davam etdirəcək Fidan Babayevadır. “Azərbaycan müəllimi” onun uğur hekayəsini təqdim edir.

Fidan Babayeva 2018 və 2019-cu illərdə İtaliya və Ukraynada keçirilən Avropa Qızlar Riyaziyyat Olimpiadasında iştirak edib. 2019-cu ildə Yunanıstanda keçirilən Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasında bürünc medala layiq görülüb.

Respublika Fənn Olimpiadalarında riyaziyyat fənni üzrə 2019-cu ildə bürünc, 2020-ci ildə isə gümüş medal qazanıb.

F.Babayeva 2020-ci ildə ali məktəblərə qəbul imtahanında ölkə üzrə ən yüksək bal toplayan ilk beş nəfərdən biri olub. 694,2 bal toplayaraq Bakı Ali Neft Məktəbinin (BANM) “İnformasiya təhlükəsizliyi” ixtisası üzrə təhsil alan gənc qız həm də Prezident təqaüdçüsü olub. IELTS imtahanından 8.0 bal nəticə göstərib.

## Dövlət Proqramı iştirakçısı:

## “Şansımı magistraturaya qəbul imtahanında da sınadım və ölkə birincisi oldum”



Fidan Babayeva 2003-cü ildə Naxçıvan şəhərində anadan olub. Orta təhsilinə Nizami rayonu 220 nömrəli tam orta məktəbdə başlasa da, 8-ci sinifdən təhsilini Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseydə davam etdirib. Məktəbi qızıl medalla bitirib. Universiteti də fərqlənmə diplomu ilə bitirən Fidan hazırda “Azercell” şirkətinin Məlumat təhlükəsizliyi və insidentlərin idarə edilməsi bölümündə kiçik mütəxəssis kimi çalışır.

Xaricdə təhsilinə gəlincə isə deyir ki, London Universitet Kollecində təhsil almaq prioritetləri arasında olduğundan müraciətini məhz ora edib: “Proqramı detallı şəkildə araşdırdım, onun maraq və gələcək planlarıma çox uyğun olduğunu gördüm. Düzünü desəm, universitetdən qəbul təklifinin gəlməsi bir neçə ay çəkdi. Bu müddət ərzində başqa iki universitetə də müraciət edib qəbul təklifi aldım. Lakin London Universitet Kollecindən bu təklif gəldikdə düşündüm ki, gözləməyimə dəyib.

Dünyanın tanınmış universitetlərində təhsil almaq, fərqli şəhərləri gəzmək və xaricdə tələbəlik həyatı yaşamaq məktəb illərindən xəyalım olub. Bakalavr təhsilimi burada alsam da, magistr təhsilimi xaricdə davam etmək qərarını vermişdim. Buna görə də elə universitet illərindən xarici universitetləri və təqaüd proqramlarını araşdırırdım”.

Fidan deyir ki, ingilis dilini mükəmməl bilsə də, gələcəkdə dil biliklərini artırmaq, alman və ispan dilllərini öyrənmək istəyir: “BANM təhsil və iş imkanları, yaxşı tələbə mühiti və ingilis dilində tədris proqramı ilə ölkənin qabaqcıl universitetlərindən biri olduğundan təhsilimi orada davam etdirməyə qərar verdim.

Tələbəlik illərində “Huawei Seeds for the Future” proqramında iştirak etdim, “Technest” və “Dəmir Ay” təqaüd proqramlarının qalibi oldum. Həmçinin, SOCAR-ın “Gənc İstedadlar” proqramının iştirakçısı kimi “Caspian Innovation Center”də kibertəhlükəsizlik sahəsi üzrə təcrübə proqramında iştirak etdim”.

2025-ci ildə magistraturaya qəbul imtahanlarında 97.5 bal toplayaraq ölkə birincisi olan Fidan Babayeva hisslərini belə ifadə edir: “Bəli, şansımı Azərbaycanda keçirilən magistraturaya qəbul imtahanında da sınadım və xoşbəxtlikdən ölkə birincisi oldum. Düzünü desəm, imtahana ciddi şəkildə hazırlaşırdım, bacardığım qədər çox testlər işləyir və sınaqlarda iştirak edirdim, buna görə də yüksək nəticə gözləyirdim. Bu uğurda ailəmin və müəllimlərimin də sonsuz əməyi və dəstəyi olub”.

Fidanın təhsil uğrunda çalışqanlğı gənclərə də bir örnək və motivasiyadır. Bu cəhətdən onlara tövsiyə edir ki, qarşılarına qoyduqları məqsədə çatmaq üçün çox çalışmalı, əzmkar olmalı və özünə inanmalıdırlar: “Məncə, xəyalını qurduğumuz uğurlar bizə əlçatmaz görünsə belə, “mən bacarmaram” deyib kənarda durmaqdansa, onların ardınca getməliyik, çünki biz istədikdən sonra hər şeyi əldə edə bilərik.

Magistratura təhsilini istər ölkədə, istərsə də xaricdə davam etdirməyi düşünən gənclərə təhsil alacaqları universitet və proqramları əvvəlcədən araşdırmağı, öz gələcək maraqları və hədəflərinə uyğun olaraq düzgün seçim etməyi tövsiyə edirəm”.

O, təhsilini tamamladıqdan sonra vətənə qayıdaraq nüfuzlu şirkətlərdə çalışmağı planlayır: “Gələcəkdə informasiya təhlükəsizliyi sahəsində mütəxəssis kimi ölkəmə töhfə verməyi, bu sahəyə yeniliklər gətirməyi və inkişaf etdirməyi düşünürəm”.

**Aytən YUSİFOVA,**
*Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi*




# Qarabağ Universiteti VII Türkoloji “Yay məktəbi”nə ev sahibliyi edir

Bu tədbir həm iştirakçı ölkələr arasında mövcud elmi əlaqələrin möhkəmləndirilməsinə, həm də Türk dünyasının ortaq elmi gələcəyinin formalaşmasına dəstək göstərilməsinə xidmət edir. “Yay məktəbi”nin Xankəndi şəhərində keçirilməsi, Qarabağ Universitetinin müəllim və doktorantlarının da proqramda təmsil olunması 7-ci dəfə təşkil olunan tədbirə xüsusi dəyər qatır. 7-ci Türkoloji “Yay məktəbi”nin açılış mərasimi 11 avqust 2025-ci il tarixində Qarabağ Universitetində baş tutub.

**Əvvəli səh.1**

Tədbirin açılışında Qarabağ Universitetinin rektoru Şahin Bayramov iştirakçıları salamlayaraq belə nüfuzlu və davamlı bir layihənin Qarabağ Universitetində keçirilməsinə görə bütün tərəfdaş qurumlara təşəkkürünü bildirib. O, 44 günlük Vətən müharibəsi və sonrakı antiterror əməliyyatları nəticəsində Azərbaycanın tarixi ədaləti bərpa edərək suverenliyini təmin etməsindən sonra Qarabağda həyata keçirilən quruculuq işlərinin ən mühüm nümunələrindən birinin Qarabağ Universitetinin yaradılması olduğunu vurğulayıb. Rektor qeyd edib ki, bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elm və təhsilin inkişafına verdiyi yüksək dəyərin bariz göstəricisidir. Şahin Bayramov çıxışında həmçinin bildirib ki, uzun illər işğal altında qalmış torpaqların azad edilməsindən sonra Qarabağ yalnız iqtisadi və sosial baxımdan deyil, eyni zamanda elmi və mədəni potensialı ilə də dirçəlir. Onun sözlərinə görə, Qarabağ Universiteti təkcə ali təhsil müəssisəsi kimi deyil, həm də regionun elmi-intellektual mərkəzinə çevrilmək istiqamətində mühüm addımlar atır. Rektor vurğulayıb ki, Qarabağın bənzərsiz təbiəti, zəngin tarixi irsi və strateji coğrafi mövqeyi buranı Türk dünyası üçün əhəmiyyətli bir elmi əməkdaşlıq platformasına çevirir. O əlavə edib ki, Qarabağ Universitetinin missiyası yalnız yüksəkixtisaslı kadrlar yetişdirmək deyil, həm də ortaq dəyərləri, milli-mənəvi irsi və dövlətçilik ənənələrini gələcək nəsillərə ötürməkdir. Onun fikrincə, bu ali məktəb Türk dünyası üçün intellektual körpü rolunu oynayaraq birgə inkişafın elmi bazasını formalaşdıracaq. Şahin Bayramov vurğulayıb ki, elm və təhsil sahəsində inteqrasiya ortaq tarixi köklərimiz üzərində möhkəmlənmiş strateji əməkdaşlığın ən etibarlı təminatıdır.

Universitet haqqında ətraflı məlumat verən Şahin Bayramov tədbirin Qarabağ Universitetinin Türk dünyasında tanınmasına, Türk dövlətlərinin alimləri və gənc tədqiqatçıları arasında elmi əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyini bildirib. O, “Yay məktəbi”nin ali təhsil müəssisələri arasında yeni tərəfdaşlıq imkanları yaradacağına inandığını ifadə edərək iştirakçılara uğurlar arzulayıb.

Türk Akademiyasının Prezidenti Şahin Mustafayev çıxışında 7-ci Türkoloji “Yay məktəbi”nin Azərbaycanın müqəddəs torpaqlarında - tarixi zəfərin rəmzi olan Qarabağda, Xankəndidə yerləşən Qarabağ Universitetində keçirilməsini böyük qürur və xoşbəxtlik kimi qiymətləndirdiyini qeyd edib. Tarixi fakt və hadisələrə toxunan Şahin Mustafayev Qarabağın tarixən elmin, mədəniyyətin və incəsənətin beşiyi olduğunu vurğulayıb. O, builki “Yay məktəbi”ni ortaq tarixi köklərə, dilə, mədəniyyətə və kimliyə sahib olan Türk dünyasının elmi inteqrasiyasını gücləndirən, qarşılıqlı anlaşmanı və bilik mübadiləsini təşviq edən mühüm akademik platforma kimi dəyərləndirib. “Türkoloji “Yay məktəbi” təkcə nəzəri və metodoloji biliklərin paylaşılması deyil, həm də ortaq elmi irsin qorunması, gələcək nəsillərə ötürülməsi və davamlı əməkdaşlıq şəbəkələrinin qurulması baxımından əhəmiyyətli təşəbbüsdür”, - deyə o əlavə edib.

Türkiyə Elmlər Akademiyasının Prezidenti Müzəffər Şəkər də çıxışında iştirakçıları salamlayaraq Qarabağ Universitetində olmaqdan məmnunluq hissi keçirdiyini bildirib. O, gənc tədqiqatçıların “Yay məktəbi” çərçivəsində quracaqları elmi əlaqələrin Türk dünyasının elmi potensialını zənginləşdirəcəyini və uzunmüddətli əməkdaşlıqlar üçün möhkəm zəmin yaradacağını vurğulayıb. Müzəffər Şəkər elm, təhsil və tədqiqatın ölkələrimizin və xalqlarımızın gələcəyi üçün həlledici əhəmiyyət daşıdığını qeyd edib.

Tədbir elmi çıxışlarla davam edib və Qarabağ Universitetinin İncəsənət fakültəsinin əməkdaşlarının musiqi ifası ilə yekunlaşıb.

Qarabağ Universiteti gələcəkdə də Türk Akademiyası və Türkiyə Elmlər Akademiyası ilə birgə layihələr həyata keçirilməsi, ortaq irsin araşdırılması və Türk birliyinin güclənməsinə töhfə verən milli-mənəvi dəyərlərin gənc nəsillərə ötürülməsi istiqamətində mühüm təşəbbüslərə imza atmağı planlaşdırır. “Yay məktəbi” Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) təşkilati dəstəyi ilə həyata keçirilir.

Qeyd edək ki, Türkoloji “Yay məktəbi” indiyədək Türkiyə, Qırğızıstan və Qazaxıstanda təşkil olunub.

# Yusif Məmmədəliyev - 120



"Mən onu şəxsən tanıyırdım, onunla dəfələrlə görüşmüşdüm və buna görə də mənim bu sözlərim kitablardan oxuduğum, yaxud kimdənsə eşitdiyim sözlər deyildir. Bunlar onunla şəxsi təmasdan aldığım təəssüratlardır. O, həddindən artıq mədəni və eyni zamanda çox təvazökar bir insan idi, millətini, xalqını həddindən artıq sevən bir adam idi, vətənpərvər bir insan idi, Vətəni haqqında, milləti haqqında, xalqı haqqında daim düşünən bir insan idi. Bu insanın siması həm zahirdən, həm də daxildən onun nə qədər yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirirdi. O, sözün əsl mənasında ziyalı idi".

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider**

## "Bu insanın siması həm zahirdən, həm də daxildən onun nə qədər yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirirdi"

# Elm fədaisi, müəllim, milli fəxrimiz

## Görkəmli alim Azərbaycan kimyaçılarının iftixar mənbəyi olan "Yusif Məmmədəliyev məktəbi"ni yaradıb

### Şərəfli ömür yolundan sətirlər

**Əvvəli səh.1**

Azərbaycan elminin inkişafına misilsiz töhfələr vermiş görkəmli alim, kimya elmləri doktoru, Dövlət Mükafatı laureatı, akademik Yusif Heydər oğlu Məmmədəliyev 1905-ci il dekabrın 31-də Ordubad şəhərində dünyaya göz açıb. O, 1911-1917-ci illərdə Ordubadda şəxsi məktəbdə təhsil alıb, sonra orada yaradılan yeni tipli məktəbdə təhsilini davam etdirib. 1918-1920-ci illərdə Təbrizdə ingilisdilli məktəbdə təhsil alıb. 1921-ci ildə Ordubadda gimnaziyanı "əla" qiymətlərlə bitirib, ibtidai məktəbdə, 1928-1930-cu illərdə isə İrəvan Pedaqoji Texnikumunda müəllim işləyib.

1926-cı ildə Ali Pedaqoji İnstitutun təbiət fakültəsini müvəffəqiyyətlə bitirib. Bu ali təhsil ocağında Y.Məmmədəliyev görkəmli kimyaçı professorlarımız S.Hüseynov və M.Xanlarovdan dərs alıb. Daha sonra 3 il müəllim işləyib. Y.Məmmədəliyevin kimya elminə olan dərin marağı və sevgisi nəzərə alınıb, 1929-cu ildə kimya biliklərini daha da dərinləşdirmək məqsədilə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Kimya fakültəsinin ikinci kursuna qəbul olunub. 24 yaşlı gənc təhsil almaqla yanaşı dünya kimya elminin görkəmli alimlərindən olan akademik N.Zelinskinin laboratoriyasında elmi-tədqiqat işləri aparmağa başlayıb. Məşhur professorlar N.D.Zelinski və A.A.Balandinin tələbələri olan Y.Məmmədəliyev kimya fakültəsinin "Üzvi kataliz" ixtisası üzrə ilk məzunlarından biri olub. 1931-ci ildə N.Zelinskinin və A.Balandinin rəhbərliyi ilə "Etilenin katalitik hidrogenləşməsinin kinetikasının öyrənilməsi" mövzusunda ilk elmi-tədqiqat işini müvəffəqiyyətlə yerinə yetirib.

1932-ci ildə vətənə qayıdan alim keçmiş Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda Üzvi kimya kafedrasına müdir təyin olunub. Bir tədris ili orada işlədikdən sonra Bakıdakı V.Kuybışev adına Azərbaycan Neft Elmi-Tədqiqat İnstitutunda (indiki AMEA Neft-Kimya Prosesləri İnstitutu) işə başlayıb. Məhz burada gənc alimin böyük istedadı üzə çıxıb. Onun o dövrdə aktual olan neft-kimya və üzvi katalizin elmi problemlərinə həsr olunan elmi məqalələri yerli neft emalı və neft-kimya sənayesinin inkişafı ilə sıx əlaqəli olub. Gənc alimin bəzi tədqiqat işləri yeni sənaye proseslərinin yaradılmasına təkan verib.

Y.Məmmədəliyevin əsas elmi fəaliyyəti bu institutla bağlı olub və böyük alim burada gənc tədqiqatçıdan akademikliyədək şərəfli yol keçib. Y.Məmmədəliyev bu elm müəssisəsində kimyaya aid intensiv axtarışlar aparmağa və ilk məqalələrini çap etdirməyə başlayıb.

### Böyük maarifçi

Akademik Yusif Məmmədəliyev böyük maarifçi olub. O, ilk əmək fəaliyyətinə müəllimliklə başlayıb. Ordubadda, Gəncədə, Bakıda, İrəvanda və başqa yerlərdə müəllim işləyib. Onun maarifçiliyi müəllimlik fəaliyyəti ilə bitmir. O, Azərbaycan Dövlət Universitetində, Dövlət Neft və Kimya İnstitutunda, başqa institutlarda, Moskva ali məktəblərində də müəllimlik edib. Azərbaycan maarifinin inkişaf etdirilməsində onun böyük xidmətləri vardır. Onun mühazirələri, tələbələrə verdiyi biliklər, göstərdiyi qayğı Yusif Məmmədəliyevin həqiqi mənada müəllim olduğunu nümayiş etdirib. Buna görə də yüksək elmi düha sahibi yetirmələrinin xatirində həm də böyük müəllim kimi yaşayır.

Y.Məmmədəliyev Azərbaycanın ilk kimyaçı akademiki, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) rektoru, iki dəfə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olub. Bu illər ərzində elmimizin inkişafı və milli mədəni dəyərlərimizin qorunması uğrunda yorulmadan çalışıb, onlarla elmi-tədqiqat institutu, yeni istiqamətli laboratoriya, kafedra və elm ocağının yaradılmasına nail olub.

Akademik Yusif Məmmədəliyevin xüsusən də böyük maarifçi kimi fəaliyyətinin ən parlaq səhifələri Azərbaycan Dövlət Universitetinə rektorluq etdiyi dövrə təsadüf edir. Görkəmli alim Azərbaycan Dövlət Universitetinə rəhbərlik etdiyi zaman çox işlər görüb, universitet daha da genişlənib, inkişaf edib, yeni kafedralar açılıb. Böyük alim universitetin elmi nüfuzunu yüksəldib. Dəqiq elmlər sahəsində son nailiyyətləri əhatə edən yeni tədris proqramları tərtib edib, universitetin keçmiş İttifaqda və xaricdə tanınmış ali məktəblərlə əlaqəsini möhkəmləndirib.

Yusif Məmmədəliyevin Azərbaycan elminin təşkili, dünya elminə inteqrasiyası sahəsində əvəzsiz xidmətləri olub. Y.Məmmədəliyev böyük nüfuza, fitri təşkilatçılıq qabiliyyətinə malik alim idi. O, 1945-ci ildə kimya elmləri sahəsində müstəsna xidmətlərinə görə bu sahədə ilk akademik seçilib. Y.Məmmədəliyevin istər akademiyanın, istərsə də bir çox müəssisələrin açılmasında, elmimizi ucaldan alimlərin hazırlanmasında əvəzsiz rol oynayıb. Akademik Y.Məmmədəliyev neft kimyası, neft kimya sənayesi, neft emalı, polimer kimyası elmləri üzrə uğurlu kəşfləri ilə haqlı olaraq dünya şöhrəti qazanıb və gələcək nəsillər üçün zəngin irs qoyub. O, Azərbaycan kimyaçılarının iftixar mənbəyi olan "Yusif Məmmədəliyev məktəbi"ni yaradıb.

### Elmin zirvəsində

Akademik Y.Məmmədəliyev dünyada ilk dəfə Azərbaycan nefti və təbii qazlarının tədqiqinə başlayıb, onların kimyəvi tərkibinin müəyyənləşdirilməsində uğurlu nailiyyətlər qazanıb. Bu təbii sərvətlərin yeni neft-kimya və neft emalı prosesləri üçün əvəzsiz təbii mənbə olduğunu elmi cəhətdən əsaslandıraraq sübut edib. Tədqiqatlarında hər zaman bu zəngin mənbədən istifadə etməyə üstünlük verib, bundan əhəmiyyətli məhsulların alınması üçün geniş işlər aparıb. Neft və təbii qazların hidrogenləşməsi, dehidrogenləşməsi, hidratlaşması sahəsində ilk dəfə yüksək nəticələr əldə edərək bir sıra gərəkli maddələrin, o cümlədən etil spirtinin, süni kauçukun, süni liflərin və sair yeni alınma üsullarını işləyib hazırlayıb. Bu metod ilə Azərbaycanda ilk dəfə süni kauçukun istehsalına başlanılıb.

Yusif Məmmədəliyev ilk dəfə neft qazlarının müxtəlif üsullarla ayrılması, xlorlaşması, etilen və asetilenə çevrilməsi, doymamış qazların bromlaşması, onların hidratlaşması, hidrogen sulfidlə qarşılıqlı təsiri və alınan halogenli birləşmələrin xalq təsərrüfatında və tibbdə istifadə olunmasına dair müvəffəqiyyətli tədqiqat işləri aparıb. Dünya alimlərinin öhdəsindən gələ bilmədiyi, əsrlər boyu müəmmalı qalan problemləri bu böyük alim həll edib - "qaynar lay" katalizator təbəqəsini tətbiq etməklə halogenləşmə proseslərində inqilabi dönüş yarada bilib. Y.Məmmədəliyevin üsulu ilə Azərbaycanda halogenli karbohidrogenlərin istehsalı üçün böyük halogenləşmə sənaye və yarımsənaye pilot qurğuları və zavodlar tikilib. Bu metod müxtəlif ölkələrdə də tətbiq edilib. Bu üsul ilə sənaye miqyasında müxtəlif sahələrdə strateji əhəmiyyətə malik, həmçinin dərman preparatları, həlledicilər, pestisidlər və digər məhsullar alınıb. Həmin dərman preparatları minlərlə insanı yoluxucu xəstəliklərdən qoruyub. Digər birləşmələr isə xüsusilə aviasiya sənayesində yüksək səmərəliliyə malik həlledicilər, yanğınsöndürmə əleyhinə maddələr kimi geniş istifadəsini tapıb. 1938-ci ildə Moskva Dövlət Universitetinin Elmi Şurası azərbaycanlı alimin əsasən neft qazlarının tədqiqi sahəsindəki yüksək əhəmiyyətli işlərini, dərin nəzəri ümumiləşdirmələrini nəzərə alaraq, ona dissertasiya müdafiə etmədən kimya elmləri namizədi alimlik dərəcəsi verib. Bu, Y.Məmmədəliyevin elmi işinin o dövr üçün xüsusi əhəmiyyət daşıdığını göstərirdi. Həm də onun artıq istedadlı alim kimi özünü təsdiq etdiyini sübut edirdi.

Akademik Yusif Məmmədəliyevin 1941-1945-ci illər müharibəsi dövründə müstəsna xidmətləri olub. Qələbənin yaxınlaşmasında əvəzsiz xidmətləri olan Y.Məmmədəliyev bu dövrdə neft kimyası və neft emalının vacib proseslərindən olan alkilləşmə sahəsində misilsiz nailiyyətlər əldə edib və yeni kəşflərə imza atıb. Nəticədə onun üsulu ilə yüksək çıxımla alınan və strateji əhəmiyyətli məhsullar olan alkilaromatik birləşmələr cəbhənin məqsədləri üçün geniş istifadə olunub, həmçinin "Molotov kokteyli" yeni tərkibdə işlənib hazırlanıb. Top mərmilərinin və minaların hazırlanmasında ən çox istifadə olunan trinitrotoluol (trotil) partlayıcı maddəsinin əsas komponenti olan toluolun yüksək çıxımla alınması, təyyarələrin yüksək uçuşunu təmin edə bilən yüksək oktanlı və çox aşağı donma temperaturuna malik yanacaqların hazırlanması onun adı ilə birbaşa bağlıdır. Alimin elmi ixtiralarına əsasən 1941-1944-cü illərdə Bakı neftayıranları cəbhəyə milyon tonlarla yüksək keyfiyyətli benzin veriblər. Görkəmli akademikin Azərbaycan nefti əsasında aldığı yüksək keyfiyyətli, oktan ədədi 120-yə bərabər olan, aşağı donma temperaturuna malik bu qiymətli yanacaq İkinci Dünya müharibəsində aviasiya yanacağı kimi də istifadə olunaraq qələbəyə birbaşa yol açıb. Y.Məmmədəliyev bu rəşadətlərinə görə bir çox təltiflərə, o cümlədən Dövlət mükafatına layiq görülüb. O, 1943-cü ildə doktorluq işini müdafiə edərək kimya elmləri doktoru alimlik dərəcəsi və professor elmi adını alıb. Akademik Y.Məmmədəliyevin bu sahədə kəşfləri nəinki səmaları, hətta kosmosu fəth etməyə imkan verib. Akademikin hazırladığı metod ilə alınan yüksəkkeyfiyyətli raket yanacaqlarından Yerin ilk süni peykinin buraxılması və insanın kosmosa uçuşunda istifadə edilib. Dahi alim haqlı olaraq Qələbə Paradına və Yuri Qaqarinin kosmosa ilk uçuşu münasibətilə təşkil olunan ali tədbirə dəvət olunub və orada ölkəmizi layiqincə təmsil edib.

Artıq bütün dünyaya məlumdur ki, Azərbaycan nefti olmasaydı, faşizm üzərində qələbə çalmağın necə, hansı səviyyədə olacağını demək çətin olardı. O vaxt sovetlər ölkəsində hasil edilən neftin 70-80 faizi Azərbaycanda, Bakıda çıxarılırdı. Ancaq iş təkcə bu neftin çıxarılması deyildi, əsas məsələ bundan neft məhsulları alınması və o məhsulların keyfiyyəti idi. Bu sahədə Yusif Məmmədəliyevin xidmətləri həddindən artıq qiymətli idi və tarixi əhəmiyyət kəsb edirdi.

### Elm təşkilatçısı

Akademik Yusif Məmmədəliyev ölkəmizdə elm təşkilatçılığında da böyük rol oynayıb. O, Elmlər Akademiyasının prezidenti, universitetin rektoru işləyərkən də Azərbaycan elminin böyük təşkilatçısı olub. 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyası yaranarkən Yusif Məmmədəliyev Elmlər Akademiyasını təsis edən 15 görkəmli şəxsiyyətlərdən biri olub. Azərbaycanın ilk akademikləri olan Mirəsədulla Mirqasımovla, Mustafabəy Topçubaşovla, Səməd Vurğunla, Şirokoqorovla, Yesmanla, Mikayıl Hüseynovla birlikdə Yusif Məmmədəliyev Azərbaycan Elmlər Akademiyasının təsisçisi olub. Elmlər Akademiyası təşkil olunandan cəmi iki il sonra Yusif Məmmədəliyev respublika EA-nın prezidenti seçilib və çox böyük işlər görüb. Məhz onun fəaliyyəti dövründə Akademiya nəzdində yeni-yeni tədqiqat institutlarının əsası qoyulub. Yusif Məmmədəliyevin təşəbbüsü ilə Bakıda Neft-Kimya Prosesləri İnstitutu yaradılıb.

Bir qürurverici faktı da diqqətə çatdırmaq lazımdır ki, Yusif Məmmədəliyev təkcə Azərbaycanda yox, o vaxtlar keçmiş Sovet İttifaqında da tanınmış böyük alim idi və Azərbaycanı layiqincə təmsil edib. 1945-1946-cı illərdə Sovet İttifaqının Neft Sənayesi Nazirliyinin elmi-texniki şurası yaradılanda bu şuraya rəhbərlik Yusif Məmmədəliyevə həvalə olunub. Moskvada böyük bir dövlətin yüksək sənaye kompleksinin elmi-texniki şurasının rəhbəri azərbaycanlının, Azərbaycan xalqının nümayəndəsinin olması təkcə Yusif Məmmədəliyev üçün deyil, həm də bütün Azərbaycan xalqı üçün iftixar hissi doğururdu.

Elmi müəssisələrin yüksək hazırlıqlı mütəxəssislərlə təmin olunmasında böyük işlər görülüb. Bütün bu elmi-tədqiqat institutlarının əksəriyyəti məhz Yusif Məmmədəliyevin Elmlər Akademiyasının prezidenti işlədiyi zaman təşkil olunub. Bu isə akademik Yusif Məmmədəliyevin yüksək elm təşkilatçısı kimi fəaliyyətinin bariz nümunəsidir.

Qeyd edilməlidir ki, Yusif Məmmədəliyev 1947-ci ildən 1950-ci ilə qədər, sonra da 1958-ci ildən 1961-ci ilədək akademiyanın prezidenti olub. Yusif Məmmədəliyev 1950-ci ildə subyektiv səbəblərə görə vəzifədən azad olunub. O, akademiyanın tərkibində öz işini davam etdirib, sonra universitetin rektoru işləyib və Elmlər Akademiyası Yusif Məmmədəliyevə yenidən ehtiyac duyub. O, 1958-ci ildə yenidən Elmlər Akademiyasının prezidenti seçilib və ömrünün sonuna qədər bu vəzifəni uğurla davam etdirib.

Yusif Məmmədəliyev respublika elminin bütün sahələrinin inkişaf etdirilməsində xidmətlər göstərib.

Ulu Öndər Heydər Əliyev Yusif Məmmədəliyev elmi dühası, onun şəxsiyyəti barədə çox gözəl fikirlər səsləndirib: "Yusif Məmmədəliyevin həyatı, yaradıcılığı, əsərləri və qoyduğu böyük elmi irs Azərbaycan xalqının tarixinin böyük bir fəslidir, hissəsidir, parçasıdır. Bu insan öz zəkası, biliyi, istedadı, fədakarlığı, elmi ixtiraları ilə, elmi əsərlər yaratmaqla, həm də ümumən Azərbaycan elmini təşkil etmək, inkişaf etdirmək sahəsindəki fəaliyyəti ilə Azərbaycan xalqının tarixinə daxil olmuşdur".

Dahi kimyaçı alim, istedadlı tədqiqatçı, gözəl müəllim, görkəmli dövlət və ictimai xadim, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, respublikanın əməkdar alimi, kimya elmləri doktoru, professor, SSRİ Dövlət Mükafatı laureatı Yusif Məmmədəliyev 1961-ci il dekabrın 15-də Bakı şəhərində vəfat edib.

**Oruc MUSTAFAYEV**

# Uğur hekayələri



Musiqiçi ailəsində doğulmaq musiqi ilə yaşamaq deməkdir. Belə ailələrdə musiqi həyatın ayrılmaz hissəsi olur və uşaqlar bu mühitdə böyüyərək daha çox musiqiyə maraq göstərir, bəzən isə musiqiçi kimi yetişirlər. Musiqiçi ailələrində yetişən övladların musiqiyə olan maraqları və istedadları daha erkən yaşlarda ortaya çıxır. Onlar musiqi alətlərini çalmağı, notları öyrənməyi və musiqi nəzəriyyəsini tez bir zamanda mənimsəməyi bilirlər. Belə ailələrdə, adətən, musiqi tərbiyəsi və təhsili ön plana çıxır, musiqi sevgisi nəsildən-nəslə ötürülür. “Azərbaycan müəllimi”nin növbəti qəhrəmanı Mehdi Niftəliyev də gözünü açan gündən musiqi səsi eşidən yeniyetmələrdəndir.

## “Özümə inanırdım”

### 13 yaşlı məktəbli vokalistlə söhbət



**“İnanırdım ki, qalib olacağam”**

Mehdi Niftəliyev 2012-ci ildə Bakı şəhərində anadan olub. O, Əməkdar artisti, xanəndə Babək Niftəliyevin övladıdır. Atası kiçik yaşlarından onu musiqiyə yönləndirmək üçün həvəsləndirib. Mehdi Azərbaycan xalq mahnıları ilə yanaşı, klassik musiqilərə də böyük maraq göstərir.

Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin 8-ci sinfinə keçən istedadlı şagird “Akademik vokal” sənəti üzrə rus bölməsində təhsil alır. Vokal üzrə müəllimi Luiza Dadaşovadan, fortepiano üzrə isə müəllimi İradə Abbasovadan dərslər alır. Mehdi bildirir: “Mən həmçinin Bülbül Vokal Məktəbinin tələbəsi olmuşam. Müəllimim respublikamızın Əməkdar artisti, opera müğənnisi Ramil Qasımovdur. Kiçik yaşlarımdan musiqiyə marağım var. Atamın ifalarına qulaq asaraq mən də oxumağa başladım. Atam müəyyən etdi ki, səsim vokal səsidir, məni musiqi məktəbinə hazırladı və imtahan verib qəbul oldum”.

Mehdi Niftəliyev bir çox tədbirlərdə, çıxış, müxtəlif müsabiqələrdə iştirak edir və həmişə müəllimlərinin, valideynlərinin və doğmalarının etimadını doğruldur. İştirak etdiyi yerli və beynəlxalq müsabiqələr haqqında məlumat verən yeniyetmə bildirir ki, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin 4-cü sinfində oxuyarkən ABŞ-nin Los-Anceles şəhərində keçirilən “XIV International Instrumental Compatetition Four Young Performers “COLIBRI-2021” beynəlxalq müsabiqəsində, populyar mahnılar kateqoriyasında vokal performansı üzrə II, musiqili teatr kateqoriyasında əla vokal ifası üzrə isə I yerə layiq görülüb. Daha sonra Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi çərçivəsində keçirilən Uşaq İncəsənət Festivalında “Akademik vokal” nominasiyası üzrə “peşəkar” kateqoriyasında I yerə yüksəlib. Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin 95 illik yubileyinə həsr olunmuş “Gələcəyin ulduzları” XVI Beynəlxalq Klassik Musiqi Festivalında I yerə, “Astana Stars” I Birinci Beynəlxalq Festivalında I yerə, “British Lion” II Beynəlxalq Festivalında “Qran Pri” mükafatına, Rus Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən “Rodniki duşi” XVI Respublika müsabiqəsində I yerə, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı ilə keçirilən “WORLD HARMONY” VII Beynəlxalq müsabiqəsində I yerə, eləcə də mükafata layiq görülüb.

**“Uğur qazanmağın sirri qarşına məqsəd qoyub, o məqsəd uğrunda irəliləməkdir”**

İstedadlı yeniyetmə qeyd edir ki, Bülbül adına Orta İxtisas Musiqi Məktəbində həm ümumtəhsil, həm də musiqi dərsləri keçilir: “Biz musiqi ədəbiyyatı, musiqi nəzəriyyəsi və solfecio, fortepiano, vokal və s. kimi çox maraqlı dərslər keçirik. Xarici dillərə həvəsim böyükdür. İngilis dilində sərbəst danışıram. İtalyan dilini də öyrənirəm”.

Uşaq İncəsənət Festivalı haqqında təəssüratlarını bölüşən Mehdinin sözlərinə görə, bu müsabiqəyə valideynlərinin məsləhəti ilə qatılıb: “Festival çox maraqlı keçdi. Festivalda bir çox nominasiya üzrə çıxış edənlər var idi: akademik vokal, estrada vokal, xanəndə, estrada ifa janrı, tar, rəqs, rəsm və s. Qalib olanda, əlbəttə ki, çox sevindim. Əslində özümə tam güvənirdim, inanırdım ki, qalib olacağam. Gələcək arzu və hədəflərim böyükdür, amma bu barədə öncədən danışmaq istəmirəm, zaman hər şeyi göstərəcək. Bütün yeni iştirakçılara, eləcə də UİF-2025-ə qatılan ortancıl qardaşım Cavidana uğurlar arzu edirəm. İştirakçılara tövsiyəm bu ola bilər ki, öz üzərlərində çoxlu çalışsınlar, özlərinə inansınlar, qətiyyən həyəcanlanmasınlar. Uğur qazanmağın sirri qarşına məqsəd qoyub, o məqsəd uğrunda irəliləməkdir”.

**Lamiyyə ƏLİMƏRDANOVA,**
*Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi*

---

Xəbər verildiyi kimi, 27 iyul - 3 avqust tarixlərində Boliviyanın paytaxtı Sukre şəhərində təşkil edilən məktəblilərin 37-ci Beynəlxalq İnformatika Olimpiadasında (IOI 2025) iştirak edən azərbaycanlı gənclərimiz - Bakı şəhəri, akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdi Ayxan Dəmirli gümüş medala, Bakı şəhəri 157 nömrəli tam orta məktəbin X sinif şagirdi Həsən Vəliyev və Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Elvin İmanlı bürünc medala, “Ankara məktəbi”məktəb-liseyin XI sinif şagirdi Əli Əliyev isə həvəsləndirici mükafata layiq görülüb. İki şagirdimizin dünya məktəbliləri arasında ilk 100-lükdə yer alması isə təhsil tariximizə xüsusilə qürurverici bir hadisə kimi yazıldı. Azərbaycan məktəblilərinin Boliviyada qazandığı uğurlar sadəcə medal statistikası deyil. Bu, gələcəyin texnoloji liderlərinə aparan yolun ilk parlaq izləridir. Qazanılan nailiyyətlərin arxasında dayanan istedadlar, onların yanında addımlayan müəllimlər, uzaq hədəflərə inandıran valideynlər və sistemli dəstəyi təmin edən qurumların rolu isə təbii ki, danılmazdır.




Gələcəyin startaplarını quracaq, süni intellekt sahəsində yeniliklərə imza atacaq gənclər bu gün məktəb partası arxasında kod yazır, alqoritm qurur, düşünürlər. Görünən də odur ki, informatika artıq sadəcə bir fənn deyil, bu, müasir dünyaya açılan bir körpüdür. Və bu körpüdən keçən hər gəncimiz gələcəyimizi bir az da aydınlaşdırır.

“Azərbaycan müəllimi” adıçəkilən beynəlxalq olimpiadada ölkəmizi layiqincə təmsil edən həmin gənclərdən ikisi ilə - Elvin İmanlı və Əli Əliyevlə həmsöhbət olub.

## Gələcəyin kodunu bu gün yazanlar

### IOI qalibləri danışırlar



Elvin İMANLI



Əli ƏLİYEV

**“Məqsədyönlü hazırlıq prosesi bizi beynəlxalq yarışa daha hazırlıqlı şəkildə çıxmağa kömək etdi”**

Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunu Elvin İmanlı olimpiadanın bürünc medalçısıdır. Onun uğur hekayəsi yalnız proqramlaşdırma bacarığına deyil, eyni zamanda müəllimlərinin dəstəyinə, ailəsinin inamına və özündəki sonsuz motivasiyaya söykənir.

“Fizika, riyaziyyat və informatika təmayüllü liseydə keçən illərim təkcə dərslərlə deyil, həm də unudulmaz xatirələrlə doludur”, - deyir Elvin. Təhsilini bitirdiyi liseydə təkcə bilik yox, həm də şəxsi inkişaf və kollektiv ruh qazandığını vurğulayır: “Təhsil ocağımızın olimpiadacıların yetişdirilməsində oynadığı böyük rol onbirillik şagird həyatımı daha da dəyərli etdi. Müəllimlərimin hər bir olimpiadaçıya göstərdiyi diqqət və qayğı, daim dəstək olması və istənilən məsələdə kömək etməsi bizə güc verdi. Onu da qeyd edim ki, həm şəxsi inkişafımızda, həm də uğurlarımızda müəllimlərimizin əməyi danılmazdır”.

Elvin təhsil aldığı müddət ərzində Respublika fənn olimpiadalarında davamlı iştirak edərək uğurlu nəticələr əldə edib. Belə ki, o, VIII və IX siniflərdə qızıl, X sinifdə gümüş, XI sinifdə isə yenidən qızıl medallara layiq görülüb. Qeyd edir ki, bu illər ərzində qazandığı hər medal onun üçün təkcə bir nəticə deyil, həm də zəhmətinin və əzminin simvoludur.

Həmsöhbətimiz Beynəlxalq İnformatika Olimpiadasında (IOI 2025) ilk dəfə iştirak etdiyini söyləyir: “Bundan əvvəl də bir sıra beynəlxalq olimpiadalarda ölkəmizi uğurla təmsil etmişəm. Avropa Yeniyetmələr Olimpiadası (EJOI) və Beynəlxalq İnkişaf Etmiş İnformatika Turniri (IATI) kimi nüfuzlu yarışlarda bürünc medallar qazanmışam. Bu təcrübəmə baxmayaraq, IOI kimi mötəbər bir yarışda iştirak etmək mənim üçün çox həyəcanverici və eyni zamanda motivasiyaedici idi. Bu yarışa böyük istəklə hazırlaşmışdım, çünki əsas məqsədim ölkəmə növbəti bir uğur bəxş etmək, bayrağımızı beynəlxalq arenada yüksəltmək idi”.

Elvinin sözlərinə görə, Beynəlxalq İnformatika Olimpiadasında iştirak etmək üçün seçim prosesi heç də asan deyildi. İkigünlük seçim mərhələsi, davamlı təlimlər və Qazaxıstanda təşkil olunan beynəlxalq düşərgə onun həm bilik, həm də liderlik bacarıqlarını möhkəmləndirib.

Hər il bu mötəbər yarışda iştirak etmək hüququ qazanmaq üçün ölkə daxilində ikigünlük seçim müsabiqəsi keçirilir. Yalnız bu mərhələlərdə ümumi olaraq ən yüksək nəticə göstərən 4 məktəbli Azərbaycan komandasına daxil ola bilir: “Nəticədə iki gün davam edən seçim mərhələlərindən sonra Azərbaycan komandasının tərkibinə daxil oldum. Yarışa hazırlıq dövrümüz də bir o qədər maraqlı və zəngin keçdi. Bizə Qazaxıstanda təlim düşərgəsində iştirak etmək imkanı yaradıldı. Bu düşərgə bizlər üçün həm peşəkar, həm də şəxsi inkişaf baxımından çox dəyərli təcrübə oldu. Orada saatlarla praktika keçdik, yeni və kompleks alqoritmlər öyrəndik, müxtəlif ölkələrdən olan iştirakçılarla təcrübə mübadiləsi apardıq. Bu intensiv və məqsədyönlü hazırlıq prosesi bizi beynəlxalq yarışa daha hazırlıqlı şəkildə çıxmağa kömək etdi”.

Beynəlxalq İnformatika Olimpiadasında verilən tapşırıqlardan da söz açan Elvin qeyd edir ki, IOI 2025 adi bir yarış deyil, dünyanın ən güclü məktəbliləri ilə eyni səviyyədə mübarizə apardığın, hər saniyəsi fokus və strategiya tələb edən bir arenadır: “Yarış iki gün davam etdi və hər gün bizə 3 çətin alqoritmik məsələ təqdim olunurdu. Tapşırıqlar dərin düşünmə, sürətli analiz və optimal kodlaşdırma bacarığı tələb edirdi. Bəzi anlar olurdu ki, sanki beynim donurdu, amma belə məqamlarda nəfəs alıb özümü toparlamağı öyrəndim”.

İstedadlı gəncimiz söyləyir ki, qazandığı təcrübə gələcək nailiyyətlərində önəmli rol oynayacaq.

Elvinin ən böyük dəstəkçisi ailəsi olub. Eyni zamanda, təhsil aldığı liseyin və müəllimlərinin üzərindəki zəhmətinin əvəzsiz olduğunu söyləyir: “Təhsil aldığım liseydə təkcə bilik deyil, həm də həyati dəyərlər qazanmışam. Artıq ADA Universitetinin tələbəsi olaraq “Kompüter elmləri” ixtisası üzrə təhsil almaq, gələcəkdə texnologiya sahəsində beynəlxalq uğurlara imza atmaq istəyirəm. Hədəfim bu sahədə təkcə istifadəçi yox, həm də yaradan olumaqdır”.

**“Vaxtımı daha səmərəli istifadə etsəydim, medal qazana bilərdim”**

“Ankara məktəbi” məktəb-liseyinin builki məzunu Əli Əliyev Beynəlxalq İnformatika Olimpiadasında ilk dəfə iştirak etdiyini bildirir. “Məhz bu beynəlxalq olimpiada ilk IOI təcrübəm idi. Olimpiadada həvəsləndirici mükafata layiq görüldüm. Sadəcə vaxtı düzgün bölə bilmədim. İlk gündə bir tapşırıq üzərində təxminən 2,5 saat vaxt itirdim. Əgər vaxtımı daha səmərəli istifadə etsəydim, medal qazana bilərdim. Bu, mənim üçün yaxşı bir təcrübə oldu və vaxt bölgüsünün nə qədər vacib olduğunu öyrətdi. Medal qazanmasam da, çox dəyərli dərslər aldım.

Təhsil həyatım məqsədyönlü və fəal keçib və VIII sinifdən etibarən özümə konkret hədəflər qoymuşam və bu hədəflərə çatmaq üçün daim çalışmışam. Liseyim isə bu yolda mənə dəstək verib. Orta təhsil aldığım illər ərzində Respublika fənn olimpiadalarında, eləcə də beynəlxalq yarışlarda informatika üzrə yüksək nəticələr əldə edərək qızıl, gümüş və bürünc medallara layiq görülmüşəm”.

Məktəbi gümüş medalla bitirən Əli ali təhsilini ADA Universitetində alacaq. Gələcəkdə isə ali təhsilinin davamını Amerikanın nüfuzlu universitetlərindən birində almaq arzusundadır. İstedadlı gəncimiz süni intellekt, alqoritm və sistem proqramlaşdırması sahələrində tədqiqat aparmağı düşünür.

**Samirə KƏRİMOVA**

# İDMAN UĞURLARI

**Türkiyənin Rizə şəhərində "Karate üzrə Qara dəniz və Xəzəryanı ölkələrin çempionatı" keçirilib.**

**Yarışda Naxçıvan Muxtar Respublikasını 3 idmançı təmsil edib ki, onlardan biri bürünc medalın sahibi Xədicə Bayramovadır.**

**"Azərbaycan müəllimi" gənc karateçi ilə həmsöhbət olub.**

**X.Bayramova 2014-cü il mayın 5-də Naxçıvan şəhərində anadan olub. Hazırda Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin 6-cı sinif şagirdidir. Karate ilə məşğul olmağa 2022-ci ildən, yəni 8 yaşından başlayıb. Deyir ki, qardaşı karate ilə məşğul olduğu üçün onda da bu idman növünə maraq yaranıb:**



## Məktəbdə əlaçı, karatedə zirvədə

"İdmana çox həvəsim olduğu üçün atam məni karateyə yönləndirdi. Karate mənim həyatımda ən önəmli yerlərdən birini tutur. Bu idmansız özümü təsəvvür edə bilmərəm. Hər yarışa xüsusi hazırlaşıram və niyyətim həmişə qalib olmaqdır. Amma uduzanda da narahat olmuram, çünki hər yarışda yeni nələrsə öyrənirəm, səhvlərimi görürəm. Ona görə də növbəti yarışlara daha hazırlıqlı oluram".

## 11 yaşlı dünya çempionunun uğur hekayəsi




Xədicənin indiyə qədər saysız-hesabsız uğurları var. Deyir ki, dünya və Avropa çempionatlarında qızıl medallar qazanıb, ölkədaxili və beynəlxalq turnirlərdə dəfələrlə qalib olub:

"Bolqarıstanın Albena şəhərində 12-14 aprel 2024-cü il tarixlərində keçirilən 14-cü şotokan karate-do üzrə dünya çempionatında 8-9 yaşlı qızlar arasında dünya çempionu olmuşam, yaşıdlarım arasında keçirilən yarışlarda 3 qızıl medal qazanmışam. Gürcüstanın Batumi şəhərində keçirilən açıq beynəlxalq turnirdə və paytaxt Tbilisidə təşkil olunan "Tbilisi Open" karate turnirində qalib olmuşam. Tbilisidə keçirilən "Open Georgia" beynəlxalq karate turnirində 9 yaş kateqoriyasında qızıl medal qazanmışam. Türkiyənin İstanbul şəhərində keçirilən "Uluslararası Marmara Cup Karate Şampiyonası" beynəlxalq turnirində isə 10 yaşlı qızlar arasında kumite yarışında 30 kq çəki dərəcəsində bürünc medala layiq görülmüşəm".

Bu, Xədicənin sadəcə bir neçə uğurudur. O, ölkədaxili yarışlarda da dəfələrlə qalib olub, müxtəlif diplomlarla təltif edilib. Bu uğurları qazanmaqda ona kömək edən əsas şəxslərdən biri isə karate müəllimidir:

"Müəllimim Nəriman Quliyev məni çox yaxşı hazırlayır. Psixoloji olaraq da mənə dəstək olur, xüsusi fəndlər öyrədir. Öz fəndlərim isə rəqibimin döyüşməsinə görə dəyişir. Hər rəqibə eyni fəndi tətbiq etmək olmaz. Onun döyüş üslubunu seçib, uyğun fənd işlədirəm. Ən sevdiyim fənd isə uramavaşidir".

Xədicə dərslərinə də vaxt ayırır və idman ona dərs oxumağa mane olmur:

"Məktəbdə əlaçı şagirdlərdən biriyəm. Dərslərimi yaxşı oxuyuram. Karate sahəsində hər zaman atamdan güc almışam. Atam və müəllimim hər zaman yanımda olublar, mənə dəstək veriblər. Bu dəstək olmasaydı, yarışlarda iştirak etmək çox çətin olardı".

Gələcəkdə Premyer Liqanın qalibi olmaq istəyir: "Arzum dünya miqyaslı uğur və qalibiyyətlərimin sayını artırmaq, hər zaman himnimizin sədaları altında bayrağımızı zirvələrə qaldırmaqdır".

Yaşıdlarına isə bunları tövsiyə edir: "Uğura inanmalısan, hər zaman yüksək enerji və inamla döyüşməlisən. Döyüşə çıxanda qorxmamalı, stresə qapılmamalısan. Rəqibinə fokuslanmalı və onun ani səhvini dəyərləndirməlisən ki, qalib gələsən".

Xədicəni tanıdıqca görürsən ki, onun böyük uğurlara imza atmaq üçün güclü potensialı var: nizam-intizam, ailə dəstəyi, həvəs və ən əsası, çalışqanlıq. Buna görə də uğurlarının davamı hələ qarşıdadır.

## "Həm uduzmağı, həm də qalib gəlməyi öyrəndim"

Naxçıvan şahmatçısı Tural Zeynalov Beynəlxalq Şahmat Federasiyası – FIDE tərəfindən "Arena Grand Master" (AGM, Arena Qrossmeyster) tituluna layiq görülüb. Həm FIDE hakimi, həm də şahmat müəllimi kimi fəaliyyət göstərən Tural Zeynalovun bu titulu Muxtar Respublikada ilk hesab olunur. Titul federasiyanın rəsmi onlayn platforması olan "FIDE Online Arena"da (worldchess.com) göstərilən nəticələrə əsasən verilir.

"Azərbaycan müəllimi" bu uğuru bölüşmək və şahmatçının hekayəsini oxucularla paylaşmaq üçün onunla həmsöhbət olub.



Tural ZEYNALOV:

### "AGM titulu mənim üçün daha böyük hədəflər üçün motivasiyadır"



Tural Zeynalov 1989-cu ilin aprelində Bakı şəhərində anadan olub. 2012-ci ildə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin "İngilis dili müəllimliyi" ixtisasını bitirib. Hazırda Naxçıvan Qarnizonunun tam orta məktəbində və Naxçıvan şəhər UG Şahmat Məktəbində şahmat müəllimi kimi çalışır. Şahmat oynamağa 1997-ci ildə başlayıb:

**"Fiqurların hərəkətini öyrəndiyim vaxt"**

"İlk dəfə fiqurların hərəkətini, qaydaları öyrəndiyim vaxt bu oyunun mənim həyatımda belə böyük yer tutacağını bilmirdim. Uşaqlıqda evdə və məktəbdə şahmatla tanış oldum, sadə kombinasiyalar həll edib, oyunun incəliklərinə maraq göstərməyə başladım. Sonrakı illərdə məktəb və yerli yarışlara qatıldım. Burada həm uduzmağı, həm də qalib gəlməyi öyrəndim. Hər yarış mənim üçün bir təcrübə, hər səhv isə öyrənmə fürsəti idi. Oyun üslubumu tədricən formalaşdırdım və şahmatın dərinliklərinə daha çox vardım".

2010-cu ildən daha ciddi məşqlərə başlayıb. Açılış repertuarını genişləndirib, kombinasiyalar və strateji planlar üzərində işləyib. FIDE və onlayn platformalarda oyunlar oynayaraq reytinqini artırmağa çalışıb:

**"Şahmat mənim üçün sadəcə oyun deyil"**

"Son illərdə şahmat artıq həyatımın ayrılmaz hissəsinə çevrilib. Davamlı məşq edir, öz üzərimdə işləyirəm. AGM titulu mənim üçün böyük uğurdur və gələcəkdə daha böyük hədəflər üçün motivasiyadır. Şahmat mənim üçün sadəcə oyun deyil, həm də həyat və düşüncə tərzidir. Bu yolda atdığım hər addım məni daha güclü və inamlı edir".

Tural müəllim deyir ki, şahmat yolunda ona ən böyük dəstək və ilham verən şəxs nənəsi olub: "Uşaqlıqda şahmatla ilk tanış olduğum vaxtlarda nənəm mənə bu oyunun sirlərini açmağa kömək etdi. Nənəm yalnız fiqurların hərəkətini öyrətmədi, eyni zamanda düşünməyi, səbirli olmağı və hər vəziyyətdən çıxış yolu tapmağı öyrətdi. Onun xatirəsi bu gün də mənimlədir və ən böyük motivasiyamdır".

**"Zəhmət və məşqlərimin nəticəsini gördüm"**

AGM titulunu aldığı an yaşadığı hissləri belə təsvir edir: "Uzun müddət davam edən zəhmət və məşqlərimin nəticəsini gördüm. Həyatımda ən xoşbəxt anlardan biri idi. Bu, sadəcə bir ad deyil, zəhmətimin və sevgimin simvoludur. Şahmatın insana verdiyi sakitlik və diqqət toplama bacarığı bu oyunu daha da sevməyimə səbəb oldu".

**Səhifəni hazırladı: Aytən YUSİFOVA,**
*Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi*

Animasiya filmləri

# TƏTİL ÜÇÜN GÜCLÜ PEDAQOJİ ALƏT



**YAY** tətilində uşaqların vaxtının səmərəli və faydalı keçməsinə kömək edən vasitələrdən biri də animasiya filmləridir. Animasiyalar yalnız əyləncə vasitəsi deyil, həm də təhsil, sosiallaşma və emosional inkişaf baxımından əvəzsiz qaynaqdır. Bu janr vasitəsilə mürəkkəb elmi, tarixi və sosial mövzular uşaqlara daha asan və anlaşılan şəkildə izah olunur. Məsələn, ekoloji mövzular, sağlam həyat tərzi, insan hüquqları və ya mədəni müxtəliflik kimi məsələlər rəngarəng obrazlar və hadisələr vasitəsilə təqdim edilir. Bu da uşaqların təhsilə marağını artırır və öyrənmə prosesini daha səmərəli edir.

Animasiyalarda dostluq, dürüstlük, əməkdaşlıq, məsuliyyət, cəsurluq kimi dəyərlər vurğulanır. Bu mesajlar uşaqların və yeniyetmələrin sosial bacarıqlarının inkişafında, düzgün davranış modellərinin formalaşmasında mühüm rol oynayır. Məsələn, ədalətsizliklə mübarizə, fərqliliklərə hörmət və digər insanların hisslərinə empatiya kimi vacib mövzular animasiyalar vasitəsilə daha asan təbliğ olunur.

Animasiyalar uşaqlara öz duyğularını tanımaq və ifadə etmək üçün də geniş imkanlar yaradır. Xarakterlərin yaşadıqları problemlər, qorxu, sevinc və kədər kimi hisslərin təsviri tamaşaçıların emosional zəka və empatiya bacarıqlarının formalaşmasına, stresslə mübarizəsinə və emosiyalarını tənzimləməsinə kömək edir.

2025-ci ili kino tənqidçiləri “Animasiya İli” kimi qiymətləndiriblər. Bunun səbəbi ilin ilk altı ayı ərzində müxtəlif platformalarda onlarla uğurlu cizgi filminin təqdim olunmasıdır. “Azərbaycan məktəbi” uşaqlar və yeniyetmələrə maraqlı olacaq həmin animasiyalardan bir neçəsi haqqında məlumatı təqdim edir.



### 1. K-pop - “İblis ovçuları”

Orijinal layihələri ilə fərqlənən Netflix-in Sony Pictures Animation ilə birgə çəkdiyi filmin rejissorları Meggi Kang və Kris Appelhansdır. Cənubi Koreyaya məxsus mədəni müxtəliflik, dərin emosional hekayələr, klassik əyləncə elementləri ilə zəngin animasiya Netflix-də 23 gündə 106 milyon dəfə baxılıb. Animasiyanın musiqisi (soundtrack) dünya musiqi çartlarında böyük uğur qazanıb.

### 2. “Ulduz işığında itənlər”

Cənubi Koreyanın ilk animasiyası olaraq, bu film 2025-ci ilin mayında Netflix-də yayımlanıb. Burada Mars və Yer arasındakı münasibətlər elmi-fantastik hekayə kimi təsvir olunub.

### 3. “Elio”

Pixar-ın çəkdiyi film 11 yaşlı Elio Solis adlı oğlanın hekayəsidir. O, valideynlərini itirdikdən sonra hərbi hava qüvvələrində xidmət edən qohumunun himayəsində böyüyür. Kiçik yaşlarından kosmosa böyük maraq duyan Elio başına gələn kədərli əhvalatlardan sonra bir gecə yadplanetlilər tərəfindən planetlərarası təşkilata “Yer planetinin səfiri” seçilir. Onun bu işi necə bacardığını öyrənmək üçün filmə baxmaq lazımdır.

### 4. “Zootopia-2”

Filmin birinci hissəsinin uğurundan sonra güclü sosial mesajlarla dolu ikinci film böyük maraqla qarşılanıb. “Zootopia-2” həm böyüklərə, həm də uşaqlara düşündürücü mesajlar təqdim edir. Film cəmiyyətdə müxtəliflik, ədalət və birgəyaşayış kimi mövzulara toxunmaqla böyük marağa səbəb olub.

### 5. “Pis oğlanlar-2”

Komediya və macəra elementlərini birləşdirən “Bad Guys” seriyasının ikinci hissəsi də çox müsbət reaksiya alıb. İlk filmdə olduğu kimi, burada da fərqli heyvan obrazları ilə cinayət və əyləncə mövzuları yumoristik şəkildə təqdim edilir. Bu dəfə qəhrəmanlar “yaxşı oğlan” olmağa çalışsalar da, hadisələr onları yenidən çətin və gülməli situasiyalara salır.

### 6. “İt adam”

Dav Pilkeyin məşhur uşaq qrafiki roman seriyasının əsasında DreamWorks Animation və Universal Pictures-in çəkdiyi film macəra janrındadır. Süjetə görə bir inspektor və onun sadiq iti Qreq qəza keçirir. Əməliyyat zamanı həkim onların bədənlərini birləşdirir. İnspektorun bədəninə itin başını yapışdıraraq “İt adam” adlı yarıinsan, yarıit qəhrəmanı yaradır.

### 7. “Diş pərisinin nağılı”

Animasiya həm vizual baxımdan, həm də hekayə olaraq emosional dərinliyə malik fantaziya macərasıdır. Uşaqlar üçün uyğun olan film həm fərqli mədəniyyətlər arasında körpü qurur, həm də komanda ruhunu, özünü tanıma və ənənələrə yeni yanaşmanın vacibliyini vurğulayır. Ailə üzvlərinin birlikdə baxması üçün əyləncəli və düşündürücü bir filmdir.

### 8. “Yerin partladığı gün”

“Looney Tunes”in modern 3D animasiya ilə təqdim etdiyi film kosmos və yerin xilası ilə bağlıdır.

### 9. “Təhlükəli dənizin quldurları”

Bu film uşaqlar və ailələr üçün əyləncəli, macəra janrında çəkilən və maraqlı mövzusu ilə diqqət çəkən animasiyadır. Rəngarəng personajları, fantastik tərtibatı və dostluq motivləri ilə yadda qalan film tamaşaçı auditoriyasına ötürdüyü dəyərlər vasitəsi ilə seçilir. Film uşaqlar üçün cəsarət və komanda ruhu mövzusunda ilhamverici nümunə sayılır.

### 10. “Təbiət robotu”

Piter Braunun əsəri əsasında çəkilən film texnologiya ilə təbiət arasındakı ziddiyyəti insanlaşmış bir robotun gözü ilə təqdim edir. Baş qəhrəman olan Roz adlı robot vəhşi təbiətdə təkbaşına sağ qalmağa və balaca bir qaz balasına analıq etməyə çalışır. O, qaz balasına təkcə şəfqət göstərmir, həm də ona həyatı öyrətməyə çalışır.

### 11. “Plankton”

2025-ci ilin gözlənilən animasiyalarından biri olan “Plankton” məşhur “Sünger Bob kvadrat şalvar” (SpongeBob SquarePants) animasiyasının sevilməyən, lakin kulta çevrilmiş personajlarından biri Planktona həsr olunan ilk tammetrajlı filmdir. Nickelodeon və Paramount Pictures-in istehsalı olan bu film klassik cizgi serialının pərəstişkarları üçün həm nostalji, həm də yeni təcrübə təqdim edir.

### 12. “Axın”

Bu sözsüz macəra animasiyası tarixdə 2025-ci ilin “Oskar” qalibi kimi qalacaq. O, həm də Latviya kinematoqrafiyası tarixində “Oskar”a layiq görülən ilk filmdir.

### 13. “Kral Canavar”

Netflix Kurtis Joblingin kitab seriyasına əsaslanan 8 seriyalı animasiyanı 2025-ci ilin martında yayımlayıb. Gənc qəhrəman Dryu Ferran özünün “Canavar adam” olduğunu öyrənəndə sülaləsinin son varisi kimi üzərinə düşən missiyanı yerinə yetirməyə söz verir. Onun əsas vəzifəsi Lionlord rejimini devirməkdir. Savaşa başlayan Ferran yeni dostlar və keyfiyyətlər qazanır. Kino tənqidçiləri bu filmlərin övladınızın təxəyyülünü gücləndirəcəyini, yeni ideyalar yaratmağa, yaradıcı düşünməyə həvəsləndirəcəyini bildirirlər. Animasiyalar təkcə əyləncə vasitəsi deyil, uşaqların və yeniyetmələrin zehni, emosional və sosial inkişafına töhfə verən güclü pedaqoji alətdir.

**Mənbə: “Azərbaycan məktəbi” jurnalı**


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327 **İndeks:** 0003

**Tiraj:** 33516 **Sifariş:** 1719

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Sumqayıt şəhər** 36 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Quliyeva (Əsədova) Şəhanə Xudayar qızına verilmiş B-270590 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Qurbanova Reyhanə Elnur qızına verilmiş C-760920 nömrəli ümumi orta təhsil haqqında attestat və 2025-ci ildə verilmiş E-797009 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Həsənabad qəsəbə 1 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Əhmədov Kərəm Ələkbər oğluna verilmiş A-266466 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Fərəcov Emil Emin oğluna verilmiş C-608572 nömrəli ümumi orta təhsil haqqında attestat və 2024-cü ildə verilmiş E-670232 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Osaküçə kənd tam orta məktəbi 1978-ci ildə bitirmiş Hümmətova Şapustə Şirvanəli qızına verilmiş K-122860 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan Peşə Liseyi** (keçmiş Orta Təhsilli İxtisaslı Kadrlar hazırlayan 152 nömrəli texniki peşə məktəbi) tərəfindən 1994-cü ildə Məmmədov Pərviz Allahqulu oğluna verilmiş 0971346 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Kənd Təsərrüfatı Texnikumu** tərəfindən 1997-ci ildə Həsənova Şəhla Əli qızına verilmiş PT-I-120116 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Məmmədabad kənd tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Ramazanova (Mirzəyeva) Günay Qismətəli qızına verilmiş A-061900 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2006-cı ildə Dadanov Adil Nail oğluna verilmiş B-071152 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Əsədli Sevda Səbuhi qızına verilmiş C-741551 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qarabağlı kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Əliyeva (İbrahimova) Rəqsanə Rəvan qızına verilmiş A-377316 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Baki şəhər** 167 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Deryabin Oleq Yuryeviçə verilmiş B-003235 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 51 nömrəli tam orta məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Fərəcov Nicat Vüqar oğluna verilmiş C-906395 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 4 nömrəli humanitar təmayüllü məktəb-liseyi 2025-ci ildə bitirmiş Babayev Mühəmməd Pərvaz oğluna verilmiş E-864564 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ordubad şəhər** M.Fizuli adına tam orta internat məktəbi 2020-ci ildə bitirmiş Tağıyev Samir Sabir oğluna verilmiş E-307873 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Kollec** tərəfindən 2019-cu ildə Quliyeva Gülnur Pərviz qızına verilmiş AA-119952 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Abbasov Həsən Abbas oğluna verilmiş A-419603 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** 137 nömrəli orta texniki peşə məktəbi tərəfindən 1993-cü ildə Yaqubov Niyaz Balakərim oğluna verilmiş 0008956 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 63 nömrəli tam orta məktəbin axşam sinfini 1997-ci ildə bitirmiş Vazehi Zaur Əbülfəz oğluna verilmiş A-166946 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Şəfəqli kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Qənbərova Nailə Fəxrəddin qızına verilmiş A-475715 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 323 nömrəli tam orta məktəbin IX sinfini 2025-ci ildə bitirmiş Əhmədzadə Qalib Qabil oğluna verilmiş F-060515 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Hərbi Liseyi** 2006-cı ildə bitirmiş Fərəcov Abbas İsrafil oğluna verilmiş B-157907 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** A.S.Makarenko adına humanitar fənlər təmayüllü gimnaziyanın IX sinfini 2009-cu ildə bitirmiş Cəfərov Elməddin Nurəddin oğluna verilmiş A-784101 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 167 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Mərdanlı Pünhan Nuru oğluna verilmiş B-584935 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2013-cü ildə Mərdanlı Pünhan Nuru oğluna verilmiş A-009774 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 115 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Əliyev Cəfər Yaşar oğluna verilmiş E-265087 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 64 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Şahbazova Fəridə İlham qızına verilmiş A-551756 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 226 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Şirəliyeva Səadət Şirəli qızına verilmiş 570376 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**S.Hacıbəyov adına Sumqayıt musiqi texnikumu** tərəfindən 1999-cu ildə Səmədova Nurcan Telman qızına verilmiş AB-II-034271 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Zəhmətabad kənd tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Əlifli Yusif Ehtiram oğluna verilmiş E-412492 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2014-cü ildə Həsənzadə Könül Məmməd qızına verilmiş A-057823 nömrəli diplom və A-288642 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** M.Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyi 2023-cü ildə bitirmiş Qurbanlı Ebru Emin qızına verilmiş E-625887 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** M.Hüseyn adına Humanitar və təbiət təmayüllü məktəb-liseyi 2009-cu ildə bitirmiş Eyvazova Ceyhunə Nazim qızına verilmiş B-648424 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 24 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Əsədli Nuray Samir qızına verilmiş E-748920 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Quşqara kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Mehtiyev Röyal Tofiq oğluna verilmiş 304276 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Göyçəkənd kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş İsayev Elgün Ramin oğluna verilmiş E-602113 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Üçtəpə kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Təhməzli Nicat Zaur oğluna verilmiş E-479154 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Hüseynov Hüseyn Əlirza oğluna verilmiş E-354947 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Rzayeva Leylafər Azər qızına verilmiş C-496730 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**7 nömrəli Bakı Peşə Liseyi** (indiki Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1998-ci ildə Nəcəfov Səxavət Nəcəf oğluna verilmiş AB-031930 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1982-ci ildə Səfərov Mübariz Malik oğluna verilmiş ИВ-029535 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəki Dövlət Texniki Kolleci** tərəfindən 2020-ci ildə Salamova Ülviyyə Elman qızına verilmiş AA-135649 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 211 nömrəli tam orta məktəbi 1986-cı ildə bitirmiş Subayev İmir Abduloviçə verilmiş 202494 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.